RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 55 (9510) 12 mart 2024-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Qazaxıstan Azərbaycanın etibarlı dostu və müttəfiqidir

◆ Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana dövlət səfəri



**Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev martın 11-də Azərbaycana dövlət səfərinə gəlib.**

**Əvvəlcə ali qonağın rəsmi qarşılanma mərasimi olub. Daha sonra Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ilə məhdud tərkibdə görüşü keçirilib və Azərbaycan-Qazaxıstan sənədlərinin imzalanması mərasimi olub. Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın birinci iclası keçirilib. Azərbaycan və Qazaxıstan prezidentləri Çinin Sian terminalından Bakının Abşeron stansiyasına konteyner qatarının gəlişi mərasimini videobağlantı ilə izləyiblər.**

**Prezident İlham Əliyev və Prezident Kasım-Jomart Tokayev mətbuata bəyanatlarla çıxış ediblər. Ali qonağın şərəfinə dövlət ziyafəti verilib. Sonra Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ilə Milli Məclisdə görüş olub. Qazaxıstan Prezidenti daha sonra Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət edib və Şəhidlər xiyabanında şəhidlərin xatirəsini ehtiramla yad edib.**

→ 2-6

*Kasım-Jomart TOKAYEV:*

## "Qazaxıstan və Azərbaycan əməkdaşlığın yeni dövrünə qədəm qoyur"



### Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Azərbaycana dövlət səfərindən əvvəl "Azərbaycan" qəzetinə və APA-ya müsahibə verib

Əlaqələrimizin uğurlu inkişafının əsasını, ilk növbədə, xalqlarımız arasında çoxəsrlik qardaşlıq əlaqələri, dövlətlərimiz arasında uzun illər davam edən faydalı əməkdaşlıq, beynəlxalq arenada qarşılıqlı dəstək təşkil edir. Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevlə formalaşdırdığımız şəxsi qarşılıqlı etimad və dostluq münasibətləri də təbii ki, mühüm aspektlər sırasında yer alır. Bu, ikitərəfli və çoxtərəfli əməkdaşlığın bütün istiqamətləri üzrə qarşılıqlı anlaşmanın möhkəmlənməsinə təkan verir. Fürsətdən istifadə edərək, son prezident seçkilərində qazandığı inamlı qələbə münasibətilə hörmətli İlham Heydər oğlunu bir daha təbrik etmək istəyirəm. Səsvermənin nəticələri Azərbaycan Liderinin xalq tərəfindən dəstəkləndiyini və onun milli birliyin, dövlətin ərazi bütövlüyünün və dinamik inkişafının təmin edilməsində xidmətlərinin yüksək qiymətləndirildiyini təsdiqlədi. 2022-ci ildə Azərbaycana rəsmi səfərim Bakı ilə Astana arasında tərəfdaşlıq üçün müəyyən mənada təkanverici oldu. İlk növbədə, bu, mənim dövlət başçısı kimi Azərbaycana ilk səfərim idi. İkincisi, bu səfər ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ərəfəsində baş tutdu. Üçüncüsü, səfərin nəticələrinə əsasən, "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsi haqqında Bəyannamə"nin qəbulu əməkdaşlığımızın yeni mərhələsinin başlanğıc nöqtəsi oldu. Müasir Qazaxıstan-Azərbaycan münasibətləri yüksələn xətt üzrə inkişaf edir. Siyasi, iqtisadi-ticari, tranzit-nəqliyyat, enerji, kənd təsərrüfatı, mədəni-humanitar və digər sahələrdə əlaqələrin genişləndirilməsi istiqamətində sistemli iş həyata keçirilir.

→ 7

## Azərbaycan islamofobiya ilə mübarizədə öndə gedir

Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Dinlərin və etnik qrupların nümayəndələri bu ölkədə əmin-amanlıq içərisində bir ailə kimi yaşayırlar. Prezident İlham Əliyevin Bakıda keçirilən "Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" mövzusunda beynəlxalq konfransın iştirakçılarına məktubunda bildirildiyi kimi, ölkəmizdə milli sərvət kimi qorunan dini bərabərlik və inklüzivlik Azərbaycan xalqının həyat tərzidir, onun güc mənbəyidir.

→ 9

## Separatçı ünsürlərin avantüraları Ermənistana baha başa gələcək

Antiterror tədbirləri ilə 200 illik erməni separatizminə və Qarabağdakı qondarma və separatçı rejimin varlığına birdəfəlik son qoyuldu. O cümlədən qondarma rejimin bu gün Ermənistanda olan nümayəndələri də özlərini buraxdıqlarını elan etdilər. Lakin özünü buraxmış və artıq mövcud olmayan qondarma rejimin hazırda Ermənistanda yenidən baş qaldırdığı, bu istiqamətdə müxtəlif təşəbbüslərin edildiyi müşahidə olunur.

→ 10

## ABŞ-nin ikiüzlü siyasəti

ABŞ-nin yaymağa çalışdığı "demokratiya" hər dəfə bəşəriyyət üçün minlərlə insanın ölümü və xaosla nəticələnib. Artıq şübhə yoxdur ki, hazırda Vaşinqton eyni aqibətlə Ukraynanı da üzləşdirir. Vaxtilə Kiyevə vədlər verib onu Rusiya ilə qarşıdurmaya sövq edən məhz rəsmi Vaşinqton və onun Avropadakı müttəfiqləri olublar. İndi isə onlar Ukraynanın parçalanması ssenarisini gerçəkləşdirirlər. Və bu planın gerçəkləşməsinə hətta Vatikan da töhfə verir... Söz yox ki, sonda yaranmış vəziyyətə görə Ukrayna hakimiyyəti günahkar çıxarılacaq.

→ 10

## Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana dövlət səfəri

# Qazaxıstan Azərbaycanın etibarlı dostu və müttəfiqidir

## Rəsmi qarşılanma mərasimi









**Azərbaycan Respublikasına dövlət səfərinə gələn Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin martın 11-də rəsmi qarşılanma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Qazaxıstan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Qazaxıstan Prezidentinə raport verdi.

Prezident Kasım-Jomart Tokayev Azərbaycan əsgərlərini salamladı.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Qazaxıstan Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyəti Qazaxıstan Prezidentinə, Qazaxıstan nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

## Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ilə məhdud tərkibdə görüşü olub



**Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə məhdud tərkibdə görüşü olub.**

## Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın birinci iclası keçirilib





**Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın birinci iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən **Azərbaycan Prezidenti İlham Əliyev** dedi:

- Hörmətli Kasım-Jomart Kemeleviç.

Hörmətli qonaqlar.

Əziz dostlar.

Sizi Azərbaycanda bir daha səmimi-qəlbdən salamlayıram. Biz indi çox maraqlı söhbət etdik, gündəliyin ikitərəfli və regional problematikası üzrə bir çox məsələləri müzakirə etdik. İndi Dövlətlərarası Şuranın birinci iclasına başlayırıq. Şuranın yaradılması qərarı özlüyündə tarixidir. Bu, münasibətlərimizin yüksək səviyyəsini və hər iki tərəfin qarşılıqlı əməkdaşlıq potensialının möhkəmləndirilməsi istəyini bir daha sübut edir. Hesab edirik ki, səfərin nəticələri və Dövlətlərarası Şuranın iclası bir çox hallarda münasibətlərimizin gələcək gündəliyini müəyyən edəcək.

Qazaxıstan və Azərbaycan iki qardaş dövlətdir. Xalqlarımız ictimai-siyasi formasiyadan asılı olmayaraq, uzun əsrlər boyu sülh, qardaşlıq, əməkdaşlıq şəraitində yaşayır. İki müstəqil dövlət olaraq isə artıq 30 ildən çoxdur ki, həm beynəlxalq strukturlarda, həm də ikitərəfli formatda fəal qarşılıqlı fəaliyyət göstərir. Son vaxtlar qarşılıqlı səfərlərimizin dinamikası çox illüstrativdir və bu, münasibətlərə yeni dinamizm verildiyini göstərir.

Qazaxıstanın uğurları bizi sevindirir. Sizi və bütün qardaş Qazaxıstan xalqını sosial-iqtisadi inkişafda, innovativ tərəqqidə çox böyük nailiyyətlər münasibətilə təbrik etmək istərdim. Qazaxıstanın iqtisadi inkişafı və ümumi daxili məhsulun artması düzgün və düşünülmüş iqtisadi siyasətdən xəbər verir. Həmçinin Sizin ölkənin modernləşdirilməsinə, iqtisadiyyatın şaxələndirilməsinə yönəlmiş və artıq bir çox nailiyyətlərin əldə edildiyi islahatlarınızı tam dəstəkləyirik.

Bu gün regional problematika məsələlərini ətraflı müzakirə etdik. Mən Kasım-Jomart Kemeleviçə Azərbaycan ilə Ermənistan arasında sülh danışıqları prosesi haqqında məlumat verdim və ümidvar olduğumu bildirdim ki, bu proses sülh sazişinin imzalanması, tariximizin bu ağır və qara səhifəsinin çevrilməsi ilə başa çatacaq.

Həmçinin bizi birləşdirən layihələrdən də ətraflı danışdıq. Mən Qazaxıstan Prezidentinə Qarabağın bərpasında göstərilən qardaş köməyinə, məhz qazax xalqının Azərbaycan xalqına hədiyyəsi və Prezident Tokayevin təşəbbüsü olan Füzuli şəhərindəki Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinə görə təşəkkürümü bildirdim. Sabah biz dostluğumuzun da mərkəzi olacaq bu Mərkəzin açılışını edəcəyik.

Azərbaycanın suverenliyinin bərpası məsələsində həmrəylik sözlərinə görə minnətdarıq. Əlbəttə, zənnimcə, Azərbaycanda hamı bilir ki, Qazaxıstan bizim etibarlı dostumuz və müttəfiqimizdir.

Bugünkü gündəliyimizdə çoxlu mövzular var. Nəqliyyat-logistika, energetika, rəqəmsallaşma, humanitar əməkdaşlıq sahələrində məsələləri aydınlaşdırmaq üçün nümayəndə heyətinin üzvlərinə söz verəcəyik. Bütün istiqamətlər üzrə işlər uğurla aparılır. Bu yaxınlarda Astanada keçirilmiş Hökumətlərarası Komissiyanın iclası Sizin dövlət səfərinizə hazırlıq xarakteri daşıyırdı. Bu səfəri məzmunca zənginləşdirmək və sonradan onların reallaşdırılmasına nəzarəti asanlaşdırmaq üçün ona çox ciddi hazırlaşırdıq. Zənnimcə, biz müvafiq tapşırıqlar verəcəyik və razılaşmalarımızın necə həyata keçirilməsi haqqında müntəzəm məlumat alacağıq.

Hörmətli Kasım-Jomart Kemeleviç, bir daha xoş gəlmisiniz. Sizi Azərbaycanda görməyimə çox şadam.

❖ ❖ ❖

**Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev** dedi:

- İlham Heydər oğlu, Qazaxıstanın ünvanına xoş sözlər söylədiyinizə görə Sizə təşəkkür edirəm. Əvvəlcə, istərdim ki, bizə göstərilən qonaqpərvərliyə görə səmimi minnətdarlığımı bildirim və fürsətdən istifadə edərək, Sizi prezident seçkilərində çox böyük inamlı qələbə münasibətilə bir daha təbrik edim. Bu qələbə yüksək etimadın, Sizin strateji kursunuza ümumxalq dəstəyinin göstəricisidir. Siz Azərbaycan xalqının hər kəs tərəfindən qəbul olunan liderisiniz və Sizi beynəlxalq arenada məhz bu cür qəbul edirlər.

Eyni zamanda Sizin də doğru qeyd etdiyiniz kimi, Azərbaycanın tarixi Qələbəsinə, öz əraziləri ilə bağlı suverenliyinin bərpa olunmasına səmimi-qəlbdən sevinirik. Bu Qələbə mahiyyət etibarilə tarixidir və şübhəsiz ki, həm Azərbaycanın, həm də ümumdünya tarixinin salnaməsinin səhifələrinə daxil olacaq.

Qazaxıstan-Azərbaycan münasibətlərinə gəldikdə, biz ilk dəfədir ki, Ali Dövlətlərarası Şuranın iclasını keçiririk. Ümumilikdə, bu da tarixi hadisədir. Elə indicə biz iqtisadi-ticari və investisiya əməkdaşlığımızla, beynəlxalq arenada qarşılıqlı fəaliyyətimizlə bağlı demək olar ki, bütün məsələlərin müfəssəl müzakirəsini apardıq və ümumi nəticələrə gəldik. Bu, onu göstərir ki, Qazaxıstan və Azərbaycan həqiqətən strateji tərəfdaşlardır, müttəfiq dövlətlərdir. Əməkdaşlığımızda baş verənlərin mühüm sirri də məhz buradadır. Perspektivlər çox yaxşıdır və təbii ki, hökumətlər bu gün imzalanmış sənədlər, sazişlər formasında əldə olunan razılaşmaların həyata keçirilməsi ilə məşğul olacaqlar.

Ardı 3-cü səh.

## Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana dövlət səfəri

# Qazaxıstan Azərbaycanın etibarlı dostu və müttəfiqidir

## Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın birinci iclası keçirilib

*Əvvəli 2-ci səh.*



Əməkdaşlığın və qarşılıqlı fəaliyyətin, təmasların səviyyəsi kifayət qədər yüksəkdir. Bu gün Sizin Şanxay Əməkdaşlıq Təşkilatının sammitində, Mərkəzi Asiya Dövlətləri liderlərinin Məşvərət görüşündə iştirakınızın nəzərdə tutulduğu və ya planlaşdırıldığı barədə danışdıq.

Türk Dövlətləri Təşkilatı liderlərinin qeyri-rəsmi sammitində iştirak etməyimlə bağlı dəvəti böyük ümidlə və minnətdarlıqla qəbul edirəm. Əlbəttə, COP29 sammiti - bu da ümumilikdə Azərbaycan dövlətinin və onun diplomatiyasının tarixi nailiyyətidir. Sammit mövcud iqlim problemlərinin nizamlanması nöqteyi-nəzərindən, həm də məhz bu sahədə qlobal əməkdaşlıq baxımından birinci dərəcəli əhəmiyyətə malikdir. Şübhəsiz ki, Bakı bu vəzifənin öhdəsindən gələcəkdir. Biz Dubayda keçirilən COP28 sammitində iştirak etdik və gördük ki, bu, həqiqətən çox mühüm forumdur. Sevinirik ki, belə mühüm qlobal forumun keçirilməsi məkanı qismində məhz Bakı seçilib.

Biz Qazaxıstanın və Azərbaycanın Xəzər dənizi üzrə qonşu dövlətlər olması və bunun, təbii ki, qarşılıqlı münasibətlərimizə xüsusi xarakter verməsi barədə danışdıq. 2020-ci ildən Qazaxıstan və Azərbaycan arasında əmtəə dövriyyəsi beş dəfə artıb. Əlbəttə, mütləq rəqəmlər o qədər də böyük təəssürat yaratmaya bilər. Bu sahədə işlər davam etdirilməlidir. Ölkələrimiz böyük iqtisadi potensiala malikdir və düşünürəm ki, növbəti uğurlar çox da uzaqda deyil. Biz bu gün nəqliyyat və logistikadan tutmuş rəqəmsallaşma məsələlərinə qədər, hələ neft və qaz və digərlərini demirəm, müxtəlif məsələlərdən danışdıq.

Məmnunam ki, biz beynəlxalq arenada da uğurla əməkdaşlıq edirik. İstər Birləşmiş Millətlər Təşkilatında, yaxud başqa beynəlxalq təşkilatlarda nümayəndə heyətlərimiz uğurlu qarşılıqlı fəaliyyət göstərirlər. Zənnimcə, bu xətt davam edəcəkdir. Müqəddəs şəhərlər olan Türküstan və Şuşa, həmçinin Uralsk və Mingəçevir, Şımkent və Gəncə arasında qardaşlıq münasibətlərini müsbət nöqteyi-nəzərdən qeyd etmək istəyirəm.

Ümumilikdə, mən ölkələrimiz arasında mədəni əlaqələrə də böyük diqqət yetirirəm. Bu, xalqlarımızın yaxınlaşması nöqteyi-nəzərindən olduqca vacibdir. Sumqayıt şəhərində Axmet Baytursınovun xatirəsinin əbədiləşdirilməsi və onun adına küçənin açılışı, Astanada Heydər Əliyevin adının əbədiləşdirilməsi də ölkələrimiz üçün əlamətdar oldu, təşəkkür edirik.

Ötən il Azərbaycanda Mədəniyyət Günləri böyük uğurla keçirildi və Sizin də dediyiniz kimi sabah Füzuli şəhərində Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılışını edəcəyik. Bu da qarşılıqlı fəaliyyətimizin və əməkdaşlığımızın rəmzi olacaq.

Daha, necə deyərlər, əlavə ediləcək heç nə yoxdur, çünki artıq həqiqətən də əməkdaşlığımızın gündəliyində mövcud olan bütün məsələlərdən danışdıq. Təklif edirəm ki, şuranın iclasına başlayaq.

**Prezident İlham Əliyev:**

- Kasım-Jomart Kemeleviç, çox sağ olun. Gündəlikdə artıq bir neçə məsələmiz var. İqtisadi-ticari və investisiya əməkdaşlığının inkişafı, neft-qaz sahəsində əməkdaşlıq, bərpaolunan enerji mənbələri, nəqliyyat-logistika sahələrində, rəqəmsal kommunikasiyalar üzrə əməkdaşlıq, həmçinin mədəni-humanitar sahələrdə.

## Azərbaycan və Qazaxıstan prezidentləri Çinin Sian terminalından Bakının Abşeron stansiyasına konteyner qatarının gəlişi mərasimini videobağlantı ilə izləyiblər





**Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Çinin Sian terminalından Bakının Abşeron stansiyasına konteyner qatarının gəlişi mərasimini videobağlantı ilə izləyiblər.**

AZƏRTAC xəbər verir ki, tədbirin aparıcısı dedi:

- Möhtərəm Kasım-Jomart Kemeleviç.

Möhtərəm İlham Heydər oğlu.

Bu gün Sian şəhərinin Qazaxıstan-Çin terminalından birinci konteyner qatarını qarşılayırıq. Qatar Bakı şəhərinədək məsafəni on bir günə qət edib. Diqqət yetirməyinizi xahiş edirəm.

Sonra qatarın gəlməsinə dair videokadrlar nümayiş etdirildi.

Qeyd edək ki, konteyner qatarının Çinin Sian şəhərində istismara verilmiş Qazaxıstana məxsus Nəqliyyat-Logistika Mərkəzi tərəfindən yola salınması Orta dəhlizin bütün iştirakçıları üçün böyük əhəmiyyət kəsb edir. Altmış bir konteynerdən ibarət qatar uzunluğu 7 min kilometr olan marşrutu (Siandakı Qazaxıstan terminalı - Aktau - Abşeron stansiyası) 11 günə qət edib. Multimodal daşıma zamanı konteynerlər Qazaxıstan limanında yenidən yüklənərək Xəzər dənizi ilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanına, oradan isə Abşeron stansiyasına çatdırılıb.

Orta dəhlizin inkişaf etdirilməsi və yeni yüklərin cəlb edilməsi baxımından bu günlərdə Çində fəaliyyətə başlamış Qazaxıstanın Nəqliyyat-Logistika Mərkəzi marşrut üzrə yükdaşımaların həcminin əhəmiyyətli dərəcədə artırılmasına hədəflənib. İlkin razılaşmaya əsasən, bu mərkəz vasitəsilə Azərbaycana ayda 10 konteyner qatarının yola salınması planlaşdırılır.

Bununla yanaşı, Orta dəhlizin inkişafı üçün birbaşa istehlakçılara yönəlmiş rəqəmsal DTC platforması yaradılıb, Azərbaycan və Qazaxıstan dəmir yolları "Track and Trace" ("Təqib və İzləmə") funksiyası vasitəsilə real vaxt rejimində marşrut boyunca yüklərin izlənməsi sisteminə inteqrasiya olunub. Vahid rəqəmsal ekosistemin yaradılması və inkişaf etdirilməsi Orta dəhlizin şəffaflığını, cəlbediciliyini getdikcə artırır.

Azərbaycan və Qazaxıstan dəmir yolları idarələrinin birgə səyləri sayəsində 2024-cü ildə yükdaşımaların həcminin əhəmiyyətli dərəcədə artırılması planlaşdırılır. Cari ilin yanvar-fevral aylarında "Qazaxıstan Dəmir Yolları" Səhmdar Cəmiyyəti ilə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti arasında yükdaşımaların həcmi 2023-cü ilin eyni dövrü ilə müqayisədə 25 faiz artaraq 539,5 min ton təşkil edib.



Xatırladaq ki, əvvəllər Çindən Orta dəhliz vasitəsilə yüklərin Qara dəniz limanlarına çatdırılması təxminən 53 gün çəkirdisə, hazırda bu müddət 18 gün təşkil edir.

**Aparıcı:** Qatar gəldi. İcazə verin, mərasimə başlayaq.

**Prezident İlham Əliyev** dedi:

- Bu əlamətdar hadisə münasibətilə nəqliyyatçıları təbrik etmək istəyirəm. Bu gün Qazaxıstan Prezidentinin Azərbaycana dövlət səfəri çərçivəsində nəqliyyat-logistika sektoruna aid məsələlər ətraflı müzakirə olundu. Qəbul etdiyimiz qərarlar mahiyyətcə bu gözəl mərasimin keçirilməsinə kömək edir. Bu gün Qazaxıstan və Azərbaycan bütün istiqamətlər, o cümlədən tranzit nəqliyyat sahəsində - konnektivliklə bağlı sahədə qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsi istiqamətində aktiv fəaliyyət göstərirlər. Bizim ikitərəfli əməkdaşlığımız həm Trans-Xəzər nəqliyyat marşrutu, həm də Orta dəhliz layihələrinin həyata keçirilməsi çərçivəsində çoxtərəfli əməkdaşlığımızın bir hissəsidir. Bu gün müzakirə edilən planlar ölkələrimizin dəmir yollarının boş qalmaması, belə konteyner qatarlarının isə gündəlik həyatımızın bir parçası olmasına imkan verir.

Ölkələrimiz arasında müxtəlif istiqamətlərdə nə qədər çox yük daşınarsa, əməkdaşlığımız o qədər inkişaf edəcək, Qazaxıstanla Azərbaycan beynəlxalq nəqliyyat daşımalarında daha böyük rol oynayacaqlar.

Bir daha Qazaxıstan və Azərbaycanı, həmçinin Çindəki tərəfdaşlarımızı bu əlamətdar hadisə münasibətilə təbrik edirəm. Qatarın yolu açıq olsun.

❖ ❖ ❖

**Prezident Kasım-Jomart Tokayev** dedi:

- Hörmətli həmkarlar, sizin hamınızı böyük əhəmiyyətə malik olan bu əlamətdar hadisə münasibətilə ürəkdən təbrik etmək istərdim. Əslində, Avrasiya kontinenti nəqliyyat-logistika karkası formalaşıb. Hesab edirəm ki, bugünkü tədbir Qazaxıstan ilə Azərbaycan arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıq tarixinə qızıl hərflərlə yazılacaq. Qazaxıstan və Azərbaycan təbii strateji müttəfiq və əməkdaşlığın bütün sahələrində, əlbəttə ki, nəqliyyat-logistika üzrə tərəfdaşdırlar. Bu gün danışıqlar əsnasında məhz təkcə bizim ölkələri deyil, həm də yaxınlıqdakı bir çox dövlətləri birləşdirən bu sahədən çox bəhs etdik.

Fürsətdən istifadə edərək, xoş niyyətə və əməkdaşlığa görə Çin Xalq Respublikasının hökumətinə minnətdarlığımı ifadə etmək istərdim. Azərbaycanın hörmətli Prezidenti İlham Heydər oğlu Əliyevin sözlərinə qoşuluram.

## Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana dövlət səfəri

# Qazaxıstan Azərbaycanın etibarlı dostu və müttəfiqidir

## Azərbaycan-Qazaxıstan sənədlərinin imzalanması mərasimi olub

**Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə Azərbaycan-Qazaxıstan sənədlərinin imzalanması mərasimi olub.**





AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev "Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının Ali Dövlətlərarası Şurasının 1-ci iclasının Qərarı"nı imzaladılar.

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov və Qazaxıstan Respublikasının "Damu" Sahibkarlığın İnkişafı Fondunun İdarə Heyətinin sədri Qauxar Buribayeva "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə "Damu" Sahibkarlığın İnkişafı Fondu" Səhmdar Cəmiyyəti arasında Anlaşma Memorandumu"nu imzaladılar.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov və Qazaxıstan Respublikasının Prezidenti yanında "Mərkəzi Kommunikasiyalar Xidməti"nin direktoru Askar Umarov "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və Qazaxıstan Respublikasının Prezidenti yanında "Mərkəzi Kommunikasiyalar Xidməti" Respublika Dövlət Müəssisəsi arasında Əməkdaşlığa dair Memorandum"u imzaladılar.



Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf və Qazaxıstan Respublikasının "KazMunayQaz" Milli Şirkəti"nin İdarə Heyətinin sədri Maqzum Mirzaqaliyev "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "KazMunayQaz" Milli Şirkəti" Səhmdar Cəmiyyəti arasında Qazaxıstan neftinin alqı-satqısı sahəsində strateji əməkdaşlıq haqqında Memorandum"u və "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "KazMunayQaz" Milli Şirkəti" Səhmdar Cəmiyyəti arasında Qazaxıstan neftinin Azərbaycan Respublikası ərazisindən tranzit edilən həcmlərinin mərhələli artırılması haqqında Saziş"i imzaladılar.

Azərbaycan İnvestisiya Holdinqinin baş icraçı direktoru Ruslan Əlixanov və "Samruk Kazyna" Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Nurlan Jakupov "Azərbaycan İnvestisiya Holdinqi və "Samruk Kazyna" Səhmdar Cəmiyyəti arasında strateji tərəfdaşlıq Sazişi"ni imzaladılar.

Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli və Qazaxıstan Respublikasının mədəniyyət və informasiya naziri Aida Balayeva "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Qazaxıstan Respublikasının Mədəniyyət və İnformasiya Nazirliyi arasında 2024-2025-ci illər üçün Tədbirlər Planı"nı imzaladılar.

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Qazaxıstan Respublikasının rəqəmsal inkişaf, innovasiya və aerokosmik sənaye naziri Baqdat Musin "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Qazaxıstan Respublikasının Rəqəmsal İnkişaf, İnnovasiyalar və Aerokosmik Sənaye Nazirliyi arasında kosmosun dinc məqsədlərlə tədqiq edilməsi və istifadəsi sahəsində Anlaşma Memorandumu"nu imzaladılar.

Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev və Qazaxıstan Respublikasının elm və ali təhsil naziri Sayasat Nurbek "3 aprel 2017-ci il tarixli Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Qazaxıstan Respublikasının Elm və Ali Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Sazişə dəyişikliklər edilməsi haqqında Protokol"u imzaladılar.

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Qazaxıstan Respublikasının nəqliyyat naziri Marat Karabayev "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Qazaxıstan Respublikasının Nəqliyyat Nazirliyi arasında dəniz gəmilərinin heyətinin ixtisas diplomlarının qarşılıqlı tanınması haqqında Saziş"i imzaladılar.

## Prezident İlham Əliyev və Prezident Kasım-Jomart Tokayev mətbuata bəyanatlarla çıxış ediblər

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev mətbuata bəyanatlarla çıxış ediblər. AZƏRTAC xəbər verir ki, əvvəlcə dövlətimizin başçısı mətbuata bəyanatla çıxış etdi.**

### Prezident İlham Əliyevin bəyanatı



- Hörmətli Kasım-Jomart Kemeleviç.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Əziz qonağımız Qazaxıstan Prezidentini dövlət səfəri ilə qəbul etmək bizim üçün böyük şərəfdir. Kasım-Jomart Kemeleviç, xoş gəlmisiniz.

Bu gün qarşılıqlı fəaliyyətimizin möhkəmləndirilməsi sahəsində artıq görülmüş işlərlə bağlı ətraflı diskussiyalar apardıq, həmçinin gələcək planlarımızı geniş müzakirə etdik. Bizim üçün qardaş ölkə, strateji tərəfdaş və müttəfiq olan Qazaxıstanın Prezidentinin dövlət səfərinə böyük əhəmiyyət veririk. Münasibətlərimizin dinamikası qarşılıqlı səfərlərimizin xronologiyasından aydın görünür. Son ilyarım ərzində mən Qazaxıstana dörd dəfə səfər etmişəm, həmçinin bu dövrdə Qazaxıstan Prezidenti üçüncü dəfədir ki, ölkəmizə gəlir. Bu gün, eyni zamanda fikir mübadiləsi çərçivəsində cari ilin sonunadək qarşıdakı səfərlərlə bağlı razılıq əldə etdik. Yəni, belə dinamik qarşılıqlı fəaliyyət faktı özlüyündə mənzərəni aydın göstərir. Biz təkcə mühüm ikitərəfli qarşılıqlı fəaliyyət məsələlərini müzakirə etmirik, həmçinin regional problematika, regionumuzda təhlükəsizlik sistemi ilə bağlı olan məsələlərə də toxunuruq.

İlk növbədə, istərdim ki, işğaldan azad olunmuş Füzuli şəhərində Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin inşasına dair təşəbbüsünə görə Kasım-Jomart Kemeleviçə bir daha təşəkkürümü bildirim. Bu, Prezidentin şəxsi qərarıdır və bu qərardan həmin layihənin reallaşdırılmasına qədər çox az vaxt keçib. Sabah biz birlikdə bizim keçmiş məcburi köçkün uşaqların təhsil alacağı, həmçinin dostluğumuzun və qardaşlığımızın mərkəzi olacaq bu mərkəzi açacağıq. Bu, Qazaxıstanın Azərbaycana qardaş köməyidir, bu, Qazaxıstanın Azərbaycana hədiyyəsidir və azad edilmiş ərazilərin bərpasına dəstəyidir.

Həmçinin ərazi bütövlüyünü və suverenliyini bərpa etməkdə Azərbaycana göstərdiyi daimi dəstəyə görə Qazaxıstana minnətdarıq. Bu gün Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması məsələsini də ətraflı müzakirə etdik. Mən həmkarıma danışıqlar prosesinin hazırkı mərhələsi, sülh sazişinin imzalanması perspektivləri haqqında məlumat verdim. Azərbaycan bu məsələdə maraqlıdır və əslində, məhz Azərbaycan sülh sazişinə dair danışıqlar prosesinin əvvəlindən təşəbbüskar olub.

Bununla yanaşı, biz, həmçinin qarşılıqlı fəaliyyətin digər məsələlərini, o cümlədən beynəlxalq strukturlarda, ilk növbədə BMT və Türk Dövlətləri Təşkilatında birgə fəaliyyətimizi müzakirə etdik. Türk Dövlətləri Təşkilatı çərçivəsində qarşılıqlı fəaliyyəti gələcəkdə də möhkəmləndirməyin zəruri olmasına dair vahid fikrə gəldik. Çünki bu təşkilat yaxın, dost, doğma ölkələri birləşdirir, həmçinin böyük potensiala, ən başlıcası inkişaf potensialına malikdir.

İkitərəfli gündəliyə gəldikdə, bu gün Ali Dövlətlərarası Şuranın birinci iclası çərçivəsində qarşılıqlı fəaliyyətimizin müxtəlif aspektləri ətraflı müzakirə olunub. Qarşılıqlı iqtisadi-ticari fəaliyyət sahəsi böyük inkişaf potensialına malikdir. Nəqliyyat-tranzit məsələsi geniş müzakirə olunub, biz Qazaxıstandan keçməklə Çin Xalq Respublikasından Azərbaycana qədər yol qət edən konteyner qatarının rəmzi qarşılanması mərasimində iştirak etmişik. Bu, Trans-Xəzər nəqliyyat dəhlizinin artıq reallığa çevrilməsi, onun özlüyündə böyük dərəcədə regional əməkdaşlığın səviyyəsini müəyyən etməsinin rəmzlərindən biridir, çünki qonşularla yaxşı münasibət olmadan tranzit ölkə olmaq mümkün deyil. Belə olan halda həm Qazaxıstan, həm də Azərbaycan bu istiqamətdə regional əməkdaşlığa, qonşularla münasibətlərin möhkəmləndirilməsinə sadiqliyini nümayiş etdirir.

Kasım-Jomart Kemeleviçlə bu gün apardığımız fikir mübadiləsi də göstərdi ki, biz də qonşularıq. Bizi təkcə Xəzər dənizi ayırır. Amma bu gün o da əngəl deyil, əksinə, Xəzər təkcə ölkələrimiz arasında yox, həm də bir çox ölkələr arasında körpüdür, çünki Trans-Xəzər nəqliyyat dəhlizi bu gün öz potensialını tam şəkildə açır. Hökumət üzvlərinin bir çox istiqamətlər üzrə geniş məruzələri dinlənildi.

Qarşılıqlı fəaliyyətimizin və birgə işimizin nəticələri, ən başlıcası, gələcək planlarımız həqiqətən də böyükdür.

Həmçinin neft-qaz sahəsində əməkdaşlıqla bağlı vəziyyət geniş təhlil edildi, yeni konkret layihələr müəyyənləşdirildi. Biz COP29 iqlim konfransına hazırlıq məsələlərini müzakirə etdik və qazaxıstanlı qardaşlarımıza bu çox mühüm beynəlxalq konfransa hazırlıq və onun keçirilməsi çərçivəsində əməkdaşlıq təklif etdik. Həmçinin humanitar əməkdaşlıqla bağlı məsələlər müzakirə olundu. Hər bir istiqamət geniş sahədir. Hökumət üzvlərinin məruzələrini dinləyəndə əyani şəkildə əmin olduq ki, artıq çoxlu iş görülüb, həm mədəniyyət günləri, həm müxtəlif tədbirlər, həm də xalqlarımızın görkəmli nümayəndələrinin xatirəsinin anılması, nəqliyyat, energetika əməkdaşlığı layihələrinin praktiki həlli, "yaşıl enerji" sahəsində əməkdaşlığın perspektivləri.

Biz paralel istiqamətlər üzrə irəliləyirik. Bu gün diskussiyalar çərçivəsində qeyd edildi ki, Trans-Xəzər nəqliyyat marşrutunu meydana, deyərdim ki, dünya nəqliyyat-logistika spektrinə çıxaran indiki geosiyasi şərait möhkəm bazaya malikdir. Çünki həm Qazaxıstanda, həm də Azərbaycanda əvvəlki illərdə bu sahəyə böyük investisiyalar yatırılıb. Zəngin təbii ehtiyatlara malik olmağımıza baxmayaraq, biz nəqliyyat infrastrukturumuzun bu gün beynəlxalq standartlara tam uyğun gəlməsinə çalışdıq və buna nail olduq. Həm Qazaxıstanda, həm də Azərbaycanda dəmir yolları, aeroportlar, avtomobil yolları, dəniz limanları daxil olmaqla, irimiqyaslı nəqliyyat layihələri həyata keçirildi. Bu gün bunlara həmişəkindən daha çox ehtiyac var. Bu, bizi bir daha əmin edir ki, bütün işləri vaxtında görmək və yaxın perspektivdən bir az uzağa baxmaq lazımdır. Yalnız belə olan təqdirdə uğur qazanmaq mümkündür. Ona görə də əgər bu gün nəqliyyat infrastrukturuna investisiya qoymağa başlasaydıq, yəqin ki, indi həmin potensiala malik olmaq üçün onilliklər lazım gələrdi. İndi bu bünövrə üzərində biz nəqliyyat-tranzit imkanlarımızın, həm limanların, dəmir yollarının, həm də sinergiya yaradılmasının, vahid nəqliyyat kompleksinin qurulmasının genişləndirilməsini planlaşdırırıq. Bu kompleksdə rəqəmsallaşma ilə bağlı layihələr də dəstəklənəcək. Bu məsələlərdə biz paralel istiqamətlər üzrə hərəkət edirik. Həm Qazaxıstanda, həm də Azərbaycanda bu sahəyə çox böyük diqqət yetirilir.

Mən həmkarımı Qazaxıstanın sosial-iqtisadi inkişafda, iqtisadiyyatın davamlı artmasında, beynəlxalq məsələlərdə nüfuzunun daim yüksəlməsində əldə olunan nailiyyətlərə görə təbrik etdim. Bu, bizim üçün çox mühümdür, qardaş xalqla qürur duyuruq.

*Ardı 5-ci səh.*

## Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana dövlət səfəri

# Qazaxıstan Azərbaycanın etibarlı dostu və müttəfiqidir

## Prezident İlham Əliyev və Prezident Kasım-Jomart Tokayev mətbuata bəyanatlarla çıxış ediblər





*Əvvəli 4-cü səh.*

Çünki bu gün Qazaxıstan beynəlxalq arenada müdrik siyasət, düzgün seçilmiş strategiya və dövlətin inkişafına yönəlmiş dəqiq, ölçülüb-biçilmiş addımlar, həmçinin beynəlxalq arenada qarşılıqlı fəaliyyət sayəsində çox böyük nüfuza malikdir. Biz buna ürəkdən sevinirik. Qazaxıstana hər səfərdə dəyişikliklərin şahidi olursan. Mən Kasım-Jomart Kemeleviçə dedim ki, müasir, gözəl meqapolis olan Astananın salınması dünya tarixində nadir nümunələrdən biridir. Mənim hər səfərimdə, - artıq dediyim kimi, son ilyarımda dörd dəfə orada olmuşam, - inkişafın şahidi oluram. Bütün bunlar Prezident Tokayevin öz xalqının, dövlətinin rifahı naminə və dostlarının sevincinə səbəb olan islahatlarını əks etdirir. Biz münasibətlərimizi daha böyük məzmunla zənginləşdirmək üçün səmimi səylər göstəririk. Dövlət səfəri münasibətlərin ən yüksək səviyyədə nümayişidir. Səfərə hazırlıq çərçivəsində onu ciddi məzmunla zənginləşdirməyə çalışırdıq.

Bu yaxınlarda Astanada hökumətlərarası komissiyanın iclası keçirildi, sənədlər hazırlandı, nümayəndə heyətlərinin iştirakı ilə ancaq sənədlərin bir hissəsi imzalandı, digərləri işgüzar qaydada imzalanır. Gündəlik həqiqətən də genişdir, ən başlıcası konkret nəticələrə istiqamətlənib.

Dəvətimi qəbul etdiyi və Azərbaycana gəldiyi üçün Qazaxıstan Prezidentinə bir daha təşəkkürümü bildirmək istəyirəm. Artıq dediyim kimi, bu dialoqu daim saxlamaq və qərara gəldiyimiz, imzaladıqlarımızı həyata keçirmək üçün komandaların bütün üzvlərinə daimi impuls vermək məqsədilə biz yaxın vaxtlarda yeni görüşlər keçirməyi razılaşdırdıq.

Bir daha xoş gəlmisiniz.

❖ ❖ ❖

Sonra Qazaxıstan Prezidenti mətbuata bəyanatla çıxış etdi.

### Prezident Kasım-Jomart Tokayevin bəyanatı

- Hörmətli İlham Heydər oğlu, göstərilən qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirirəm.

Müqəddəs Azərbaycan torpağında olduğumuz ilk dəqiqədən ev sahibinin səmimi münasibətini hiss etdik. Bu dövlət səfəri dövlətlərimiz arasında əməkdaşlığın inkişaf perspektivləri nöqteyi-nəzərindən çox mühümdür. Gördüyünüz kimi, məni çox böyük nümayəndə heyəti müşayiət edir. Bu, onu göstərir ki, biz belə mühüm tədbirin - qardaş Azərbaycana dövlət səfərinin bütün aspektlərinə geniş hazırlıq görmüşük.

Əvvəlcə, öz səfərimə qiymət vermək istərdim. Həqiqətən səfər tam uğurlu oldu. Bu gün müvafiq sənədlərin, sazişlərin imzalanmasında iştirak etdik. Amma ən başlıcası odur ki, razılaşdığımız kimi, hökumətlərin və digər müvafiq idarələrin səyləri yüksək səviyyədə görüşlər zamanı əldə olunmuş bütün razılaşmaların tam şəkildə reallaşmasına yönəldiləcək.

Fürsətdən istifadə edərək, - mən artıq bunu Ali Dövlətlərarası Şuranın birinci iclasında da söyləmişəm, - hörmətli İlham Heydər oğlu, Sizi bir daha prezident seçkilərində çox inamlı qələbə münasibətilə təbrik etmək istərdim. Bu, Azərbaycan xalqının Sizin strateji kursunuza tam dəstəyinin göstəricisidir. Heç şübhə etmirəm ki, belə mühüm ölkəyə bu prezidentlik fəaliyyətində də bütün sahələrdə - həm siyasətdə, həm də iqtisadiyyatda böyük uğurlar qazanılacaq.

Azərbaycan Sizin rəhbərliyinizlə böyük tarixi Qələbə əldə edib. Bu, dövlət suverenliyinin bərpa olunmasıdır. Qazaxıstan xalqı bununla bağlı böyük sevinc hissi keçirib. Biz bu mövzuda danışmışıq. Mən Sizə təbrik məktubu ünvanlamışam. Zənnimcə, bu, uzun illər ərzində Sizin dövlət suverenliyinin bərpasına yönəlmiş və son nəticədə tarixi həqiqətin bərpası ilə nəticələnən səylərinizin qanunauyğun yekunudur.

Daha bir uğuru - qlobal iqlim konfransının keçirilməsini qeyd etmək istərdim. Bu mühüm tədbirin məhz Bakıda keçirilməsi faktı bir çox məqamlardan xəbər verir. Hər şeydən əvvəl, Sizin ölkənizin sosial-iqtisadi inkişaf sahəsində, həmçinin beynəlxalq arenada nailiyyətlərinin qəbul edilməsi amilidir. Həqiqətən Azərbaycanın nüfuzu durmadan artır, bu, həm iqtisadiyyatda, həm də beynəlxalq siyasətdə baş verir. Əlbəttə, Qazaxıstan COP29-un müvafiq səviyyədə keçirilməsini dəstəkləyir və bu son məqsədə nail olmaq üçün lazımi səylər göstərəcəkdir. Hər halda mən Sizin dəvətinizlə həmin tədbirdə şəxsən iştirak etməyi planlaşdırıram.

Həqiqətən son vaxtlar yüksək səviyyədə təmaslar artıb və bu, çox müsbət məqamdır. Cari il də istisna olmayacaq. Biz yüksəksəviyyəli beynəlxalq tədbirlərdə iştirak etmək üçün Sizi azı iki dəfə Qazaxıstanda gözləyirik. Mən özüm də Türk dövlətləri liderlərinin qeyri-rəsmi sammitində iştirak etmək üçün Azərbaycana yenidən səfər etməyi planlaşdırıram. Düşünürəm ki, bu təmaslar strateji tərəfdaşlığı və hətta Qazaxıstanla Azərbaycan arasında müttəfiqliyi möhkəmləndirmək üçün çox faydalıdır. Strateji tərəfdaşlıqdan danışdıqda, biz bunu sadəcə gözəl ifadə və ya diplomatik nəzakət kimi qəbul etmirik. Əslində, əməkdaşlığımızın mahiyyəti qarşılıqlı fəaliyyətimizin strateji xarakterini ehtiva edir.

Bu gün Ali Dövlətlərarası Şuranın birinci iclası əsnasında elə mühüm məsələlər müzakirə olundu ki, onların reallaşdırılması, nəzərdə tutulan planların yerinə yetirilməsi üzrə bu məsələlərin strateji istiqamətindən danışmaq həqiqətən yerinə düşür.

Nəqliyyat-logistika sahəsinə gəldikdə, bu gün qeyd etdik ki, hazırda dünyada məhz nəqliyyat-logistika imkanlarına çıxış uğrunda mübarizə kəskinləşir. Bu, strateji sahədir. Sevindirici haldır ki, həm Qazaxıstan, həm də Azərbaycan təbii tərəfdaşlar kimi bu sahədə sıx qarşılıqlı fəaliyyət göstərirlər. Sian limanından Qazaxıstan ərazisindən Azərbaycana dəmir yolu marşrutu üzrə bugünkü mərasim də çox mətləblərdən xəbər verir. Bu, həqiqətən çox mühüm tədbirdir və mənim dövlət səfərim zamanı keçirildi. Buna çox şadam.

Biz rəqəmsallaşma, süni intellektin yaradılması, Xəzərin dibi ilə optik-lif rabitə xəttinin qurulması sahələrində birgə səylər göstərilməsindən də danışdıq. Bu layihələr unikaldır. Zənnimcə, uğurlar çox da uzaqda deyil.

Strateji tərəfdaşlığımızın mədəni-humanitar tərkibi üzrə əməkdaşlığımızı da xüsusi qeyd etmək istəyirəm. Bu, xalqlarımızın yaxınlaşması baxımından çox mühümdür. Biz Azərbaycan tərəfinə Qazaxıstan mədəniyyəti günlərinin yüksək səviyyədə keçirilməsinə yaradılan lazımi şəraitə və səmimi qəbula görə minnətdarıq. Biz də Azərbaycan mədəniyyət xadimlərini ölkəmizdə səbirsizliklə gözləyirik və bu tədbirin uğurla keçəcəyi heç bir şübhə doğurmur, çünki Azərbaycan mədəniyyətinə maraq hər zaman vardır. Düzünü söyləmək lazımdır ki, Qazaxıstan xalqı sizin mədəniyyətinizdən ötrü darıxıb və Azərbaycan mədəniyyət xadimlərini böyük məmnunluqla qarşılayacaq.

Həmçinin çox mötəbər təşkilatlarda qarşılıqlı fəaliyyətimizi xüsusi qeyd etmək istəyirəm. Bu, Birləşmiş Millətlər Təşkilatı, Türk Dövlətləri Təşkilatı, ATƏT, AQEM, SPECA, MDB kimi təşkilatlardır. Zənnimcə, bu, beynəlxalq qarşılıqlı fəaliyyətin çox böyük spektridir və sözügedən beynəlxalq əməkdaşlıq davam edəcək. Strateji tərəfdaşlıqdan danışırıqsa, bu da çox əhəmiyyətlidir.

Hörmətli Prezident İlham Heydər oğlu Əliyevə, göstərilən qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm. Sizin torpağınızda özümüzü çox rahat hiss edirik. Gözəl Bakı şəhərinə Sizin dəvətinizlə böyük maraq və ümidlərlə gəldik. İndi isə təbii ki, Qazaxıstana qayıtdıqda dərhal müvafiq qərarların qəbul edilməsinə başlayacağıq və əldə olunmuş bütün razılaşmaların həyata keçirilməsi üçün lazımi səylər göstərəcəyik.

Təşəkkür edirəm.

## Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ilə Milli Məclisdə görüş

**Azərbaycanda dövlət səfərində olan Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə Milli Məclisdə görüş olub.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, ali qonağı parlamentin sədri Sahibə Qafarova qarşılayıb.

Qazaxıstan Prezidenti Milli Məclisin iclas zalı ilə tanış olub.

Görüşdə Prezident Kasım-Jomart Tokayevin Azərbaycana dövlət səfərinin, Prezident İlham Əliyev ilə keçirilən görüşlərin və aparılan danışıqların ölkəmizdə böyük diqqətlə izlənildiyini deyən spiker Sahibə Qafarova vurğulayıb ki, xalqlarımızın dostluğunun, qardaşlığının növbəti təzahürü olan bu səfər ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsinə və genişlənməsinə töhfə verəcək.

Qeyd olunub ki, Azərbaycan və qazax xalqları ümumi mədəni, mənəvi köklərlə bir-birinə bağlıdır. Ölkələrimiz müstəqilliklərini bərpa etdikdən sonra hər gün genişlənən, artıq strateji tərəfdaşlıq və müttəfiqlik səviyyəsinə yüksələn əlaqələrimiz də məhz bu möhkəm təməl üzərində qurulub.

Parlamentlərimizin əlaqələri haqqında məlumat verən Milli Məclisin Sədri vurğulayıb ki, Azərbaycan ilə Qazaxıstan arasında ikitərəfli və çoxtərəfli münasibətlərə mühüm və müsbət təsir göstərən amillərdən biri də ali qanunverici orqanlarımızın qarşılıqlı fəaliyyətidir.

Beynəlxalq təşkilatlarda qarşılıqlı fəaliyyətin əhəmiyyətinin də vurğulandığı söhbət zamanı hazırda dünyada bir sıra mənfi proseslərin də müşahidə olunduğunu deyən Sahibə Qafarova qeyd edib ki, ikili standartlar, islamofobiya kimi meyillər narahatlıq doğurur. Belə bir şəraitdə ikitərəfli əməkdaşlıq əlaqələrimiz daha böyük əhəmiyyət kəsb edir.

Xüsusilə TÜRKPA çərçivəsində əməkdaşlığın əhəmiyyətindən danışan Milli Məclisin Sədri xatırladıb ki, Prezident İlham Əliyev parlamentdə andiçmə mərasimindəki çıxışında Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığı prioritet kimi müəyyənləşdirib. Azərbaycan dövlətinin başçısı xüsusilə qeyd edib ki, bizim ailəmiz Türk dünyasıdır və biz Türk Dövlətləri Təşkilatının qlobal arenada mühüm aktora və güc mərkəzinə çevrilməsi üçün birlikdə çalışmalıyıq. Sahibə Qafarova vurğulayıb ki, parlamentarilər də TÜRKPA-nı daha da gücləndirmək üçün birgə səyləri davam etdirməlidirlər. TÜRKPA çərçivəsində fəaliyyət xalqlarımızı daha da yaxınlaşdırır, ölkələrimiz arasında əlaqələrin dərinləşməsi və möhkəmlənməsi üçün böyük imkanlar yaradır.

Azərbaycana səfərindən və Milli Məclisdə olmaqdan məmnunluğunu bildirən Prezident Kasım-Jomart Tokayev Qazaxıstan Senatının sədri vəzifəsində Azərbaycanın Milli Məclisində üç dəfə olduğunu xatırladıb. Prezident Kasım-Jomart Tokayev bunun da Azərbaycan parlamentinə və xalqına hörmətinin bir nümunəsi olduğunu qeyd edib.

Qazaxıstanın və Azərbaycanın strateji tərəfdaş və müttəfiq ölkələr olduğunu deyən Prezident Kasım-Jomart Tokayev vurğulayıb ki, bu da üzərimizə xüsusi öhdəliklər qoyur.

Azərbaycanın regionda artan rolunu vurğulayan Qazaxıstan Prezidenti ölkəsinin bütün sahələrdə Azərbaycanla əməkdaşlıqda maraqlı olduğunu diqqətə çatdırıb. O xatırladıb ki, Prezident İlham Əliyev ilə danışıqlarının əsas mövzuları da neft-qaz, logistika, rəqəmsal texnologiyalar, sənaye və digər sahələrdə əməkdaşlıq məsələləri olub.

Söhbət zamanı Prezident Kasım-Jomart Tokayev Qazaxıstanın iqtisadiyyat, sənaye, rəqəmsallaşma, kənd təsərrüfatı və digər sahələrdə qazandığı uğurları və perspektiv planları barədə məlumat verib. Ölkələrimizin nəqliyyat-logistika, Orta dəhliz və digər layihələr çərçivəsində əməkdaşlığından məmnunluqla danışan Qazaxıstan dövlətinin başçısı humanitar sahədə də münasibətlərin inkişafının əhəmiyyətini qeyd edib. Bu baxımdan dövlət başçısı Azərbaycanda keçirilmiş Qazaxıstan mədəniyyəti günlərinin xalqlarımızı daha da yaxınlaşdırdığına əminliyini ifadə edib. O, Bakıda Qazaxıstan mədəniyyət günlərinin keçirilməsinə göstərilən dəstəyə görə Azərbaycan hökumətinə təşəkkürünü ifadə edib və Qazaxıstanda da Azərbaycan mədəniyyət günlərinin keçirilməsi məsələsinin gündəmdə olduğunu bildirib.

Dövlətlərarası münasibətlərin inkişafında parlament diplomatiyasının rolunu yüksək qiymətləndirən Qazaxıstan Prezidenti beynəlxalq təşkilatlar, o cümlədən Türk Dövlətləri Təşkilatı çərçivəsində konstruktiv əməkdaşlığın əhəmiyyətindən danışıb. Ali qonaq ölkələrimiz arasında bu sahədə mövcud əməkdaşlıqdan məmnunluğunu ifadə edib. O deyib ki, parlamentlərarası əlaqələr ölkələrimiz arasında münasibətlərin mühüm istiqamətini təşkil edir. Kasım-Jomart Tokayev bir sıra parlament təşkilatlarında əməkdaşlığın önəmini vurğulayıb.

Sahibə Qafarova deyib ki, bu gün qanunverici orqanlarımız arasında çox səmərəli əməkdaşlıq qurulub. Azərbaycan Milli Məclisi ilə həm Qazaxıstan Parlament Məclisi, həm də Senatı arasında yaxşı əlaqələr və sıx təmaslar mövcuddur. Hər iki ölkənin qanunverici orqanlarında dostluq qrupları var və deputatlarımızın qarşılıqlı səfərləri, nüfuzlu beynəlxalq parlament təşkilatlarında mütəmadi görüşlərin keçirilməsi ikitərəfli əlaqələrin inkişafına töhfə verir.

Vurğulanıb ki, parlamentlərimiz arasında əlaqələri daha da dərinləşdirmək üçün geniş imkanlar var. Parlament komitələri arasında səmərəli qarşılıqlı fəaliyyət mühüm istiqamətlərdən biri hesab olunur.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

## Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana dövlət səfəri

# Qazaxıstan Azərbaycanın etibarlı dostu və müttəfiqidir

## Ali qonağın şərəfinə dövlət ziyafəti





Martın 11-də Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin şərəfinə dövlət ziyafəti verilib. AZƏRTAC xəbər verir ki, ziyafətdə Azərbaycanın və Qazaxıstanın musiqi əsərlərindən ibarət konsert proqramı təqdim olunub.

## Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət

Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev martın 11-də Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.



AZƏRTAC xəbər verir ki, ali qonaq görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini anıb, məzarı üzərinə tər çiçəklər düzüb.

## Şəhidlərin xatirəsinə ehtiram

**Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev martın 11-də Şəhidlər xiyabanını ziyarət edib.**



AZƏRTAC xəbər verir ki, Prezident Kasım-Jomart Tokayev Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Sonda Bakının ən hündür nöqtəsindən paytaxtımızın mənzərəsini seyr edən ali qonağa Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.



## Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma

**Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev martın 11-də Azərbaycan Respublikasına dövlət səfərinə gəlib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevi hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşıladılar.

## Gürcüstan parlament nümayəndə heyəti Milli Məclisdə olub

Martın 11-də Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev Gürcüstan Parlamentinin Təhsil, elm və gənclər məsələləri üzrə komitəsinin sədri Givi Mikanadzenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Bəxtiyar Əliyev qonaqları salamlayaraq, Azərbaycan və Gürcüstan xalqları arasında dostluq əlaqələrinin tarixi köklərə əsaslandığını deyib. O, dövlətlərarası münasibətlərin möhkəmlənməsində parlamentlərin rolunu xüsusi qeyd edərək, rəhbərlik etdiyi Elm və təhsil komitəsinin Milli Məclisdə fəaliyyət göstərən 15 komitədən biri olduğunu söyləyib. Qanunverici orqanların müvafiq komitələri arasında əməkdaşlığın təcrübə və informasiya mübadiləsi baxımından vacibliyindən bəhs edib. Təhsil üzrə komitələr arasında əlaqələrin dərinləşməsi üçün birgə səylərin davam etdirilməsinin önəmini vurğulayıb.

Komitə sədri ölkəmizdə təhsil sisteminin inkişafından, bu istiqamətdə həyata keçirilən islahatlardan söhbət açıb, elm və təhsil sahəsinin qanunvericilik bazasının təkmilləşdirildiyini qeyd edib. O, Azərbaycanla Gürcüstan arasında təhsil sahəsində müxtəlif istiqamətlər üzrə əlaqələrin daha da genişləndirilməsi, o cümlədən tələbə mübadiləsi, diplomların qarşılıqlı tanınması ilə bağlı əməkdaşlığın inkişafı barədə fikirlərini açıqlayıb.

Bəxtiyar Əliyev ölkələrimiz arasında iqtisadi əlaqələrin uğurla inkişaf etdiyini söyləyib. O, "yaşıl enerjiyə" keçidlə bağlı ölkəmizdə həyata keçirilən dövlət proqramlarının qarşıda geniş imkanlar açdığını bildirib.

Gürcüstan Parlamentinin Təhsil, elm və gənclər məsələləri üzrə komitəsinin sədri Givi Mikanadze qardaş və qonşu ölkələrimiz arasında möhkəm dostluq və strateji müttəfiqlik münasibətlərinin olduğunu söyləyib. Bu münasibətlərin möhkəmlənməsində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin müstəsna rolunu vurğulayıb. Heydər Əliyevə Gürcüstan xalqının daim hörmətlə yanaşdığını, onun adının bu ölkədə əbədiləşdirildiyini deyib.

Əlaqələrimizin güclənməsində qanunverici orqanların rolundan danışan Givi Mikanadze qarşılıqlı səfərlərin vacibliyini qeyd edib, bu səfərin iki ölkə parlamentləri arasında əlaqələrin inkişafına xidmət edəcəyini söyləyib. O vurğulayıb ki, ölkələrimiz arasında münasibətlərin genişlənməsində təhsil, elm sahəsində əlaqələrin inkişafı böyük önəm daşıyır. Bu əlaqələrin möhkəmləndirilməsinə parlamentlərimizdə fəaliyyət göstərən Təhsil komitələrinin töhfə verdiyini deyib və komitələr arasında əməkdaşlığın perspektivləri barədə fikirlərini bölüşüb.

Görüşdə Gürcüstan Parlamentinin deputatları Giorgi Sosiaşvili və Rostom Çxeidze çıxış edərək Gürcüstanla Azərbaycan arasında elm, təhsil, mədəni, humanitar sahələrdə əlaqələrin inkişafından söhbət açıblar.

Söhbətdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin möhkəmləndirilməsi, parlamentlərarası əməkdaşlığın inkişafı, müxtəlif sahələrdə əlaqələrin genişləndirilməsi və digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

***

Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri martın 11-də Gürcüstanın Təhsil, elm və gənclər məsələləri komitəsinin sədri Givi Mikanadzenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Gürcüstan parlamenti ilə əlaqələr üzrə işçi qrupunun rəhbəri Arzu Nağıyev Azərbaycanla Gürcüstanın tarixi dostluq, mehriban qonşuluq münasibətlərindən söz açıb, ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsində dövlət başçılarının səfərlərinin və görüşlərinin rolunu vurğulayıb.

Azərbaycan və Gürcüstan arasında təhsil sahəsində ciddi inkişafın müşahidə olunduğunu bildirən Arzu Nağıyev hər iki ölkənin aparıcı universitetlərinin əməkdaşlığının əhəmiyyətindən bəhs edib. O, qanunverici orqanlarımız arasında əməkdaşlığın dinamik inkişaf etməsindən danışıb, parlament sədrlərinin qarşılıqlı səfərlərinin, keçirilən görüşlərin bu istiqamətdə mühüm əhəmiyyət daşıdığını deyib.

Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Anar İsgəndərov və Kamilə Əliyeva ölkələrimiz və parlamentlərimiz arasında əlaqələrin möhkəmləndirilməsi ilə bağlı fikirlərini açıqlayıblar.

Gürcüstan parlamentinin Təhsil, elm və gənclər məsələləri üzrə komitəsinin sədri Givi Mikanadze əlaqələrimizin genişlənməsində qanunverici orqanların rolundan, dostluq qruplarının səmərəli əməkdaşlığından danışıb. Komitə sədri iki ölkə arasında qarşılıqlı səfərlərin intensivliyinin artmasını sevindirici hal kimi qiymətləndirib.

Söhbət zamanı ölkələrimiz arasında parlamentlər səviyyəsində əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

## Azərbaycan yolların keyfiyyət göstəricisinə görə postsovet ölkələri arasında birincidir

Martın 11-də Milli Məclisdə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi "Nəqliyyatın idarə edilməsində yeniliklər və çağırışlar" mövzusunda ictimai dinləmə keçirib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili dinləmənin keçirilməsi üçün göstərilən dəstəyə və yaradılan şəraitə görə Milli Məclisin Sədri Sahibə Qafarovaya təşəkkür edib.

Azərbaycanda nəqliyyat sahəsində ölkə Prezidenti İlham Əliyevin nəzarəti altında həyata keçirilən genişmiqyaslı layihələrdən söz açan komitə sədri son iyirmi ildə respublikada 21 min kilometr uzunluğunda avtomobil yolunun çəkildiyini və bərpa edildiyini bildirib. Nəqliyyat infrastrukturunun yenilənməsi və yeni texniki keyfiyyətlərin tətbiqi baxımından böyük uğurların əldə edildiyini vurğulayan komitə sədri yolların keyfiyyətinə görə Azərbaycanın dünyanın 141 ölkəsi arasında 27-ci, postsovet ölkələri arasında isə birinci olduğunu diqqətə çatdırıb. Eyni zamanda qeyd olunub ki, Bakının böyüməsi və yerüstü nəqliyyat sayının sürətlə artması yolların və nəqliyyatın idarə olunmasında müəyyən problemlər yaradıb. Avtomobilləşmənin gətirdiyi çətinliklərə toxunan komitə sədri məsələnin həlli yollarından, bununla bağlı dünya təcrübəsindən danışıb, problemin iqtisadi və inzibati metodlarla aradan qaldırılması haqqında fikirlərini bölüşüb.

Sonra rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov mövzu üzrə məruzə ilə çıxış edib. Nazir müavini ölkəmizdə aparılan sosial, iqtisadi islahatların nəqliyyat sistemindən də yan keçmədiyini bildirib, O, nəqliyyat infrastrukturunun, ictimai nəqliyyatın inkişaf etdirilməsinin daim diqqətdə saxlanıldığını bildirib. Nazir müavini nəqliyyat infrastrukturu, mikromobillik, yollarda hərəkətin təmini və digər bu kimi istiqamətlərdə problemlərin həlli üçün görülən müvafiq işlərdən, gələcək planlardan danışıb.

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) İdarə Heyətinin sədri Anar Rzayev yerüstü nəqliyyat xidmətlərinin keyfiyyətinin və əlçatanlığının artırılması ilə bağlı slaydlarla müşayiət olunan təqdimatı tədbir iştirakçılarının diqqətinə çatdırıb. AYNA-nın sədri nəqliyyat infrastrukturu üzrə problemlərin diaqnostikasının aparıldığını, artıq keçən ildən onların həlli üçün müvafiq addımlar atılmağa başlandığını deyib. Agentliyin sədri ictimai nəqliyyatın keyfiyyətinin yaxşılaşdırılması, yol hərəkətinin sürətinin, sürücülərin və piyadaların mobilliyinin artırılması, həmçinin təhlükəsizliyinin gücləndirilməsi işləri, qarşıya qoyulan hədəflər, nəzərdə tutulan tədbirlər barədə məlumat verib.

Dinləmədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Əli Məsimli, deputatlar Fəzail Ağamalı, Vüqar Bayramov, Elşən Musayev, Ziyad Səmədzadə, Naqif Həmzəyev, Elnur Allahverdiyev, Nigar Arpadarai, Aydın Hüseynov, Emin Hacıyev, İltizam Yusifov, Məzahir Əfəndiyev, Vahid Əhmədov Müşfiq Cəfərov və nəqliyyat sahəsi üzrə ekspertlər fikirlərini bölüşüblər, suallarını və təkliflərini səsləndiriblər.

Yekunda rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov dinləmədə qaldırılan məsələlərə münasibətini bildirib, səsləndirilən suallara aydınlıq gətirib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# *Kasım-Jomart TOKAYEV:* "Qazaxıstan və Azərbaycan əməkdaşlığın yeni dövrünə qədəm qoyur"

## Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Azərbaycana dövlət səfərindən əvvəl "Azərbaycan" qəzetinə və APA-ya müsahibə verib

**- Siz 2022-ci ilin avqust ayında Azərbaycanda rəsmi səfərdə olmusunuz və şübhəsiz ki, həmin səfər iki dövlət arasında münasibətlərdə tarixi məqama çevrilib, onların inkişaf dinamikasına təkan verib. İkitərəfli münasibətlərin hazırkı vəziyyətini necə xarakterizə edərdiniz?**

- Əlaqələrimizin uğurlu inkişafının əsasını, ilk növbədə, xalqlarımız arasında çoxəsrlik qardaşlıq əlaqələri, dövlətlərimiz arasında uzun illər davam edən faydalı əməkdaşlıq, beynəlxalq arenada qarşılıqlı dəstək təşkil edir. Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevlə formalaşdırdığımız şəxsi qarşılıqlı etimad və dostluq münasibətləri də təbii ki, mühüm aspektlər sırasında yer alır. Bu, ikitərəfli və çoxtərəfli əməkdaşlığın bütün istiqamətləri üzrə qarşılıqlı anlaşmanın möhkəmlənməsinə təkan verir. Fürsətdən istifadə edərək, son prezident seçkilərində qazandığı inamlı qələbə münasibətilə hörmətli İlham Heydər oğlunu bir daha təbrik etmək istəyirəm. Səsvermənin nəticələri Azərbaycan Liderinin xalq tərəfindən dəstəkləndiyini və onun milli birliyin, dövlətin ərazi bütövlüyünün və dinamik inkişafının təmin edilməsində xidmətlərinin yüksək qiymətləndirildiyini təsdiqlədi. 2022-ci ildə Azərbaycana rəsmi səfərim Bakı ilə Astana arasında tərəfdaşlıq üçün müəyyən mənada təkanverici oldu. İlk növbədə, bu, mənim dövlət başçısı kimi Azərbaycana ilk səfərim idi. İkincisi, bu səfər ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ərəfəsində baş tutdu. Üçüncüsü, səfərin nəticələrinə əsasən, "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsi haqqında Bəyannamə"nin qəbulu əməkdaşlığımızın yeni mərhələsinin başlanğıc nöqtəsi oldu. Müasir Qazaxıstan-Azərbaycan münasibətləri yüksələn xətt üzrə inkişaf edir. Siyasi, iqtisadi-ticari, tranzit-nəqliyyat, enerji, kənd təsərrüfatı, mədəni-humanitar və digər sahələrdə əlaqələrin genişləndirilməsi istiqamətində sistemli iş həyata keçirilir. Ənənəvi qarşılıqlı fəaliyyət mexanizmləri ilə yanaşı, Qazaxıstan-Azərbaycan Ekspert Şurası, Azərbaycan-Qazaxıstan İşgüzar Şurası yaradılıb və fəaliyyət göstərir. Bakıya səfərim çərçivəsində Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şurası işə başlayacaq və biz onun ilk iclasını keçirəcəyik. Normativ-hüquqi baza tədricən genişlənir və təkcə 1 il 6 ay ərzində 40-a yaxın mühüm ikitərəfli sənəd imzalanıb. Qarşıdan gələn səfərim zamanı növbəti mühüm sənədlər paketi imzalanması üçün hazırlanır. Təbii ki, bu, qarşılıqlı fəaliyyətimizə yeni təkan verəcək. 2020-ci ildən etibarən ölkələrimiz arasında ticarət dövriyyəsi təxminən 5 dəfə (109 milyon dollardan 529 milyon dollara) artıb. Bu, parlaq dinamikadır və biz dövriyyə həcminin artırılmasını davam etdirməyi planlaşdırırıq. Bizim portfoliomuza həm ölkələrimiz, həmçinin bütün region üçün vacib olan bir sıra layihələr daxildir. Buraya Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta dəhliz) imkanlarının genişləndirilməsini, Xəzərin dibi ilə fiber-optik rabitə xəttinin və enerji kabelinin çəkilməsini, Azərbaycan vasitəsilə neft və uranın ixracını, Qazaxıstandan Azərbaycan bazarına buğda tədarükünü aid etmək olar. Bir sıra birgə təşəbbüslər ölkələrimiz arasında mədəni əlaqələrin möhkəmləndirilməsinə və turist axınının artırılmasına hədəflənib. Ümumi məqsədimiz Qazaxıstanla Azərbaycan arasında həqiqətən də güclü həm strateji, həm də müttəfiqlik əlaqələri yaratmaqdır. Əminəm ki, birgə səylərlə bu məqsədə nail olacağıq.

**- Prezident İlham Əliyevlə görüşünüz zamanı Qarabağın bərpasına qazax xalqının töhfəsi ilə bağlı mühüm qərar qəbul olundu. Qazaxıstan tərəfi Azərbaycan xalqına hədiyyə olaraq Füzuli şəhərində görkəmli qazax bəstəkarı Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin tikintisini təklif edib. Qardaş Qazaxıstan gələcəkdə ölkəmizdə daha hansı layihələri həyata keçirməyi planlaşdırır?**

- Qarabağın necə dinamik şəkildə canlandığını artıq görürük. Bu regionda böyük quruculuq işləri aparılır. Nəqliyyat, sosial və turizm infrastrukturu aktiv şəkildə inkişaf edir, hava limanları, mehmanxanalar, yaşayış binaları, məktəblər tikilir. Təbii ki, biz bu fəzilətli işlərdən kənarda qala bilməzdik. 2022-ci ilin avqust ayında Bakıya səfərimdə Qazaxıstan xalqının Azərbaycana hədiyyəsi olaraq Füzuli şəhərində Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin tikiləcəyini elan etdim. Mənim budəfəki səfər proqramımda həmin mərkəzin rəsmi açılışı nəzərdə tutulur. Şübhəsiz ki, bu müəssisə ölkələrimiz və xalqlarımızın dostluğunun, qardaşlığının, qarşılıqlı dəstəyinin daha bir simvoluna çevriləcək. Mən şirkətlərimizin Qarabağın dirçəldilməsi prosesində iştirak etməkdə maraqlı olduğunu bir daha təsdiqləmək istərdim. Qazaxıstan şirkətinə Füzuli şəhərində Mərkəzi Rayon Xəstəxanası binasının tikintisi layihəsini təqdim etdiyinə görə Azərbaycan rəhbərliyinə minnətdarlığımı bildirirəm. Yaxın gələcəkdə Qazaxıstan şirkətlərinin iştirakı ilə oxşar daha çox layihənin həyata keçiriləcəyini gözləyirik. Əminəm ki, birgə səylər nəticəsində Qarabağ yeni rəng çalarları ilə çiçəklənəcək və Azərbaycanın quruculuq siyasətinin nümunəsinə çevriləcək. Regionun infrastrukturunun bərpası təkcə Azərbaycanın deyil, bütün Cənubi Qafqazın inkişafına töhfə verəcək. Əlavə olaraq qeyd etmək istərdim ki, Qazaxıstan Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin tezliklə bağlanmasında maraqlıdır. Qazaxıstan beynəlxalq sülhməramlı təşəbbüsləri iqdam edən və dəstəkləyən ölkə olaraq bütün Avrasiya regionunun dinc və sabit inkişafına yönəlmiş istənilən səyləri dəstəkləməyə hazırdır.

**- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimində Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində fəaliyyəti prioritet adlandırıb: "Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır. Biz özümüzü çox yaxşı hiss edirik". Cənab Prezident onu da qeyd edib ki, Azərbaycanın TDT-yə üzv olan bütün dövlətlərlə qardaşlıq münasibətləri var və ölkənin siyasəti təşkilatın möhkəmlənməsinə yönəlib: "Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik".**
**TDT-nin gələcəyini və bu təşkilat çərçivəsində Azərbaycanla Qazaxıstan arasında əməkdaşlığı necə qiymətləndirirsiniz?**

- İlk olaraq onu qeyd edim ki, Qazaxıstan və Azərbaycan Türk Dövlətləri Təşkilatının qurucularıdır. Qurumun yaradılması təşəbbüsü Qazaxıstan tərəfindən irəli sürülüb və müqavilənin özü qədim Azərbaycan torpağında imzalanıb. Həmin andan demək olar ki, on beş il ötüb və indiyə qədər bizim ümumi təşkilatımız institusionallaşma yolunda uzun məsafə qət edib. Bundan əlavə, TDT beynəlxalq arenada tanınmış və hörmətli aktora çevrilir. Azərbaycan Liderinin Türk Dövlətləri Təşkilatının tarixi missiyasına verdiyi qiymətlə razılaşmamaq çətindir. Həqiqətən də bu inteqrasiya birliyinin rolunu dəyərləndirmək çətindir. Nisbətən qısa bir tarixi dövr ərzində dövlətlərimizin əməkdaşlığı özünün həyat qabiliyyətini nümayiş etdirərək türk dünyasının konturlarını yeni geosiyasi reallıq kimi müəyyən edib. Obrazlı şəkildə desək, bizim vəzifəmiz güclü genlərə malik bu cücərtini davamlı olaraq inkişaf etdirməkdir. TDT-nin potensialı olduqca böyükdür. Sadəcə, bəzi rəqəmlərə nəzər salaq: TDT-yə üzv olan ölkələrin ümumi ərazisi təxminən 4,5 milyon kvadratkilometrdir, ümumi daxili məhsulun həcmi (ÜDM) 1,5 trilyon dollardan çoxdur, əhalisi 160 milyon nəfərdən artıqdır. TDT çərçivəsində ticarət dövriyyəsi 42,3 milyard dollara çatıb, türk dövlətlərinin dünya ilə ümumi ticarət dövriyyəsi isə 1,3 trilyon dollara yaxındır. Təşkilatın bütün ölkələri dünya iqtisadi proseslərinə inamla daxil olub, əsas beynəlxalq təşkilatlarda təmsil olunur və aktiv fəaliyyət göstərirlər. Hesab edirəm ki, bu, TDT çərçivəsində inteqrasiya proseslərinin daha da uğurlu inkişafı üçün kifayətdir. Türk dövlətlərinin tranzit-nəqliyyat əlaqələri, iqtisadiyyat, ekologiya, elm, təhsil, incəsənət, turizm, idmandan tutmuş ortaq tariximizin indiyədək naməlum səhifələrinin araşdırılmasına qədər geniş spektrli məsələlər üzrə əməkdaşlığı inkişaf etdirməyə qərarlı olması gələcəyə inam yaradır. Bu baxımdan TÜRKSOY, Beynəlxalq Türk Akademiyası, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu kimi TDT ailəsinə daxil olan digər təşkilatların əməyini qeyd etməyə bilmərəm. Onlar təkcə humanitar və maarifləndirici



missiya yerinə yetirmir, həmçinin xalqlarımızın həyatına böyük mənəvi güc verirlər. Türk Dövlətləri Parlament Assambleyası (TÜRKPA) qanunların təsis edilməsi və parlament diplomatiyasının inkişafı ilə bağlı təcrübə mübadiləsinin aparıldığı, qabaqcıl ideyaların toplandığı nüfuzlu beynəlxalq qurumdur. Nisbətən yaxın dövrdə yaradılmış Türk İnvestisiya Fondu regiondaxili ticarətin, kiçik və orta sahibkarlığın inkişafına kömək etməyə vəsaitlərin cəlb olunması, habelə beynəlxalq maliyyə institutları ilə birgə layihələrin həyata keçirilməsi üçün yüksək effektiv platforma yaratmaq üçün nəzərdə tutulub. Qazaxıstanla Azərbaycan arasında TDT çərçivəsində əməkdaşlıqdan danışarkən təşkilatın institusional inkişafına yanaşmalarımızın ahəngliyinə diqqəti çəkmək istərdim. Ölkələrimiz türkyönümlü altı beynəlxalq təşkilatın hamısının iştirakçısıdır və bu, TDT-nin inteqrasiyasının inkişaf vektorunu Astana ilə Bakının eyni şəkildə görməsinin ən bariz nümunəsidir. Qardaş xalqlarımızı bir-birinə daha da yaxınlaşdırmaq üçün Azərbaycan idmançılarını cari il sentyabrın 8-14-də Astanada keçiriləcək V Ümumdünya Köçəri Oyunlarında iştirak etməyə dəvət edirik.

**- Hazırda hamımız görürük ki, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta dəhliz) həm regionumuz, həm də bütün dünya ölkələri üçün əhəmiyyəti getdikcə daha da artır. Onun potensialını və ölkələrimizin iqtisadiyyatı üçün gələcək rolunu necə qiymətləndirirsiniz?**

- Yeni geosiyasi reallıqlar kontekstində transkontinental ticarətin təşviqində və inkişafında ölkələrimizin rolu sürətlə artır. Hətta xəritəyə ötəri nəzər salsaq belə, Mərkəzi Asiyanın və Cənubi Qafqazın unikal coğrafi mövqeyini görə bilərik. Bu səbəbdən Qazaxıstan da Azərbaycan kimi ölkənin logistika və nəqliyyat potensialının gücləndirilməsi istiqamətində aktiv siyasət yürüdür. Bunun bizim qarşımızda dayanan strateji əhəmiyyətli vəzifə olmasını gizlətmirəm. 2030-cu ilə qədər 11 min kilometr dəmir yolu xətti təmir etmək və 5 min kilometrdən çox yeni dəmir yolu çəkmək niyyətindəyik. Bu, ölkənin nəqliyyat imkanlarını xeyli artıracaq. Orta dəhliz kimi də adlandırılan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun transkontinental ticarətin təşviqində və inkişafında rolu bu gün sürətlə artıb. Bunu həmin marşrut üzrə yükdaşımaların həcminin 2022-ci ildə iki dəfə artaraq 1,7 milyon ton, 2023-cü ildə isə əlavə 65 faiz artaraq 2,7 milyon tona çatması sübuta yetirir. Gələcəkdə bu həcmin ildə 10 milyon tona çatacağını gözləyirik. Bunun üçün həm tələbat, həm də texnoloji imkanlar mövcuddur. Bu səbəbdən Astana ilə Bakı bu sahədə kompleks addımlar atır. Bunun bariz nümunəsi 2022-ci ilin sonlarında Aktauda imzalanan Azərbaycan, Qazaxıstan, Türkiyə ərazilərində Orta dəhlizin inkişafı üzrə 2022-2027-ci illəri əhatə edən Yol Xəritəsidir. Xəzər sahillərindəki dəniz limanlarımızın genişmiqyaslı müasirləşdirilməsinə xüsusi diqqət yetiriləcək. Bundan əlavə, Qazaxıstan, Azərbaycan və Gürcüstan dəmiryolçuları tərəfindən yükdaşımaların həcmini artırmaq üçün "bir pəncərə" formatında xidmət göstərəcək "Middle Corridor Multimodal Ltd" birgə müəssisəsi yaradılıb. Marşrut boyunca ən son rəqəmsal texnologiyalardan istifadə olunacaq. Bunun üçün biz kəsintisiz rəqəmsal dəhliz hazırlamış transmilli PSA Sinqapur şirkətini cəlb etdik. Biz dəmir yolu nəqliyyatı sahəsində innovativ həllərin tətbiqi üçün "Huawei", "Wabtec", "Alstom" kimi qlobal şirkətlərlə fəal əməkdaşlıq edirik. Onlar bu sahəni daha rəqabətli və səmərəli edəcəklər. Marşrutun gələcək inkişafı və onun digər nəqliyyat dəhlizləri ilə əlaqəsi də perspektivli hesab olunur ki, bu da Cənubi Qafqazla Türkiyənin Qazaxıstan, Mərkəzi Asiya ölkələri, Avrasiya İqtisadi Birliyi (AİB) və Çinlə daha geniş transregional inteqrasiyası üçün əlavə imkanlar təmin edəcək. Ümumiyyətlə, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu böyük potensiala malikdir və təbii ki, bu mühüm layihənin həyata keçirilməsində Qazaxıstanla Azərbaycanın rolu olduqca böyükdür. Bu arteriyanın inkişafı ticarət dinamikasının genişlənməsinə töhfə verməklə yanaşı, Şərqlə Qərb arasında əlaqələndirici körpü kimi ölkələrimizin mövqeyini möhkəmləndirəcək.

**- Azərbaycan da Qazaxıstan kimi enerji sektorunun, o cümlədən "yaşıl" iqtisadiyyatın və bərpaolunan enerji mənbələrinin inkişafına böyük diqqət yetirir. Bildiyimiz qədəri ilə, ölkələrimiz bu sahədə bir sıra perspektivli layihələr həyata keçirir. Onlar haqqında bizə ətraflı məlumat verə bilərsiniz?**

- Bu gün bütün sivil dünya iqtisadiyyatın dərindən karbonsuzlaşdırılması məqsədinə doğru irəliləyir və Qazaxıstan da istisna deyil. Biz qarşımıza 2060-cı ilə qədər karbon neytrallığına nail olmaq kimi kifayət qədər iddialı bir məqsəd qoymuşuq. Ölkədə elektrik enerjisi istehsalının 70 faizinin kömürdən istifadə hesabına təmin edildiyini nəzərə alsaq, bu, kifayət qədər çətin hədəfdir. Buna baxmayaraq, ölkəmizdə "yaşıl" enerjinin potensialı çox böyükdür: söhbət ildə 1 milyard GVt/saat enerjidən gedir. Bununla əlaqədar olaraq, bu gün dünyanın ən böyük şirkətləri investisiya yatırmağa böyük maraq göstərirlər. Ən perspektivli və irimiqyaslı layihələrdən biri Manqistau regionunda "yaşıl" hidrogen istehsalı layihəsidir. Orada Almaniya-İsveç şirkəti "Svevind Energy Group" ilə birgə 50 milyard avro dəyərində unikal müəssisə yaradılır. Yaxın zamanda Qazaxıstanın cənubunda 1 GVt gücündə külək elektrik stansiyası tikiləcək. Həmçinin Səudiyyə Ərəbistanının "ACWA Power", Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "Masdar" və s. bu kimi aparıcı qlobal şirkətlərlə layihələrin həyata keçirilməsi strateji rol oynayır. Mən bilirəm ki, Azərbaycan da "yaşıl enerji" ilə bağlı gündəliyin fəal təbliğində ciddi uğurlar əldə edib. Bu gün ölkəniz xarici bazarlarda uğurlu elektrik enerjisi təchizatçısıdır və Avropa İttifaqının "Global Gateway" layihəsinin bir hissəsi olan "Qara Dəniz Enerjisi" ("Black Sea Energy") adlı təşəbbüsdə iştirak edir.

Qazaxıstanın nəhəng bərpaolunan enerji potensialını nəzərə alaraq, biz Azərbaycanın region ölkələrinin enerji sistemlərinin gələcək inkişafının səylərini, enerji sistemlərinin davamlı qarşılıqlı əlaqəsi də daxil olmaqla, əlaqələndirmək və sinxronlaşdırmaq təşəbbüsünü alqışlayırıq.

Ötən ilin noyabrında Bakıda Azərbaycan, Qazaxıstan və Özbəkistanın iqtisadiyyat və energetika nazirləri Qazaxıstan və Özbəkistandan Azərbaycan ərazisi ilə Avropaya elektrik enerjisinin ixracı perspektivlərini müzakirə ediblər. Həmçinin "yaşıl" energetika sahəsində layihələrin inkişafı ilə bağlı fikir mübadiləsi aparılıb. Görüşün yekununda ölkələrimiz Avropaya elektrik enerjisi ixracı üzrə birgə müəssisənin yaradılması və layihənin iqtisadi əsaslandırılmasının hazırlanması barədə razılığa gəliblər.

Beləliklə, Qara dəniz və Xəzərdə həyata keçirilən layihələr tezliklə birləşəcək ki, bu da ölkələrimizin elektrik enerjisi təchizatçısı kimi mövqelərini gücləndirəcək.

**- Bu il Bakıda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) keçiriləcək. Qazaxıstan yaxın illərdə BMT-nin dəstəyi ilə iki böyük iqlim sammiti keçirəcək. Biz bunu beynəlxalq ictimaiyyətin göstərdiyi etimad kimi qiymətləndiririk. Qazaxıstan bu istiqamətdə hansı ideyaları, təcrübə və bilikləri bölüşə bilər?**

- Hazırda üzləşdiyimiz bütün çətinliklərdən bəlkə də ən əhəmiyyətlisi iqlim dəyişikliyidir. Mərkəzi Asiya bu problemlə mübarizədə ön sıralarda yer alır. Hətta 2050-ci ilə qədər qlobal istiləşməni 1,5 dərəcə ilə məhdudlaşdırmaq hədəfinə çatsaq belə, - hansı ki, getdikcə daha çətin görünür, - biz Mərkəzi Asiyada 2 - 2,5 dərəcə temperatur artımı ilə üzləşəcəyik. Biz su ehtiyatlarının tükənməsi prosesindən narahatıq. Mərkəzi Asiyada quraqlıq və daşqınlar geniş miqyasda ziyan vuracaq və kənd təsərrüfatı sahəsinin məhsuldarlığı 30 faiz azalacaq. İqlim dəyişikliyinin yaratdığı risklərin nəticəsində 2050-ci ilə qədər təxminən 5 milyon daxili miqrant olacaq. Bu amillər birbaşa və ya dolayısı yolla dövlətlərimizin davamlı inkişafına ciddi təhlükə yaradır. Sizin də düzgün qeyd etdiyiniz kimi, regional prosesi gücləndirmək və birgə səyləri sürətləndirmək məqsədilə artıq 2026-cı ildə Qazaxıstanda BMT çərçivəsində Mərkəzi Asiya Regional İqlim Sammitinin keçirilməsi təşəbbüsü ilə ölkəmiz çıxış edib və biz Azərbaycanı əsas qonaqlar qismində görməkdən şad olarıq. İnanıram ki, bu təşəbbüs səmərəli iqlim siyasətinin irəliləməsinə kömək edəcək və Mərkəzi Asiya ölkələrində davamlı enerjiyə keçidi sürətləndirən investisiyaların cəlb edilməsini asanlaşdıracaq. Sammit regionda karbon tullantılarının azaldılması üçün birgə strategiyaların qəbuluna imkan verəcək. Ölkəmiz MDB məkanında ilk ölkələrdən biri kimi iri enerji, neft-qaz, sənaye, kimya və dağ-mədən sənayesi müəssisələrini özündə birləşdirən istixana qazı emissiyaları üçün limit və ticarət sistemini işə salıb. Biz Azərbaycanın MDB məkanındakı türk dövlətləri arasında COP29 kimi irimiqyaslı tədbirə evsahibliyi etmək hüququ qazanan ilk dövlət olmasını alqışlayırıq. Bu baxımdan, bizim qlobal miqyasda iri ekoloji tədbirlərin keçirilməsində Azərbaycanın təcrübəsini öyrənmək üçün gözəl imkanımız var və lazımi yardımı göstərməyə hazırıq.

**- Cənab Prezident, maraqlı və ətraflı müsahibə üçün Sizə təşəkkür edirik. Bakıya dövlət səfəriniz və Novruz bayramı ərəfəsində həmvətənlərimizə nə arzu etmək istərdiniz?**

- Qazax və Azərbaycan xalqları bir çox sınaqlardan keçiblər. Bizim ortaq köklərimiz, yaxın dillərimiz, oxşar mədəniyyətlərimiz var. Biz bu gün birgə gələcəyimizi birlikdə qururuq. Tarixi uzaq əsrlərə gedib çıxan bu bayram birliyin, sülhün, harmoniyanın, dövrlərin və nəsillərin qırılmaz əlaqəsinin təcəssümüdür. Novruz bayramı ümumi irsimiz olmaqla Qazaxıstan və Azərbaycan xalqlarının mənəvi yaxınlığının möhkəmlənməsində mühüm rol oynayır.

Novruz yeni gün, yenilənmə deməkdir. Simvolik olaraq hazırkı dövrdə Qazaxıstanla Azərbaycan arasında və bütün türk dünyasında yenilənmə, dirçəliş prosesləri gedir, biz əməkdaşlığımızın yeni dövrünə qədəm qoymuşuq.

Qardaş Azərbaycan xalqına bu bayramda xoşbəxtlik və gələcəkdə çiçəklənmə arzulayıram. Novruz bayramınız mübarək!

## "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 579 (Cild I) 24-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 24.1-ci maddəyə "olunmayan" sözündən sonra "qida obyektləri (subyektləri)" sözləri əlavə edilsin.

2. 24.9-cu maddə üzrə:

2.1. birinci cümlədə "qida obyektlərinin təsdiq qaydasında" sözləri "bu Qanunun 24.16-cı maddəsində nəzərdə tutulan qaydada" sözləri ilə əvəz edilsin;

2.2. aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Aparılan qiymətləndirilmə nəticəsində qida obyektlərində aşkar edilmiş uyğunsuzluqların infrastruktur və avadanlıqla əlaqəli olduğu və təhlükəli qida və yem məhsullarının istehsalına və emalına səbəb olacağı halda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) qida obyektinin təsdiqindən imtina edilməsi barədə qərar qəbul edir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 fevral 2024-cü il*

## "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1102-VIQD nömrəli Qanununun tətbiqi və "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 iyun tarixli 1723 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1102-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 24.9-cu maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 24.9-cu maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1102-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 iyun tarixli 1723 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 6, maddə 607 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənddə "24.7-24.9-cu" sözləri "24.7-ci, 24.8-ci maddələrində, 24.9-cu maddəsinin birinci və ikinci cümlələrində" sözləri ilə əvəz edilsin;

3.2. 2.4-cü bənddə ", 24.9-cu" sözləri "maddələrində, 24.9-cu maddəsinin birinci və ikinci cümlələrində" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 mart 2024-cü il*

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları hərbi qulluqçularının "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının aşağıdakı hərbi qulluqçuları "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilsinlər:

Ələkbərov Nicat Vaqif oğlu - polkovnik
Abdulkərimov Tural Akif oğlu - polkovnik-leytenant
Əliyev Telman Elyaz oğlu - polkovnik-leytenant
Həsənov Əli Vaqif oğlu - polkovnik-leytenant
Qurbanov Anar İsa oğlu - polkovnik-leytenant
Məmmədov Xəyyam Loğman oğlu - polkovnik-leytenant
Ağayev Nemət Mir Tahir oğlu - mayor
Əliyev Rasim Nurməmməd oğlu - mayor
Quliyev Malik Əlipənah oğlu - mayor
Məhərrəmov Sətdar Razim oğlu - mayor
Niftəliyev Ayaz Tofiq oğlu - mayor
Məmmədov Bilal Şahin oğlu - kapitan.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 mart 2024-cü il*

## E.Ə.Məmmədova "general-mayor" ali hərbi rütbəsinin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**
Polkovnik Elçin Əli oğlu Məmmədova "general-mayor" ali hərbi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 mart 2024-cü il*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 131** **QƏRAR** **Bakı şəhəri, 11 mart 2024-cü il**

### Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması haqqında

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2024-cü il 1 iyul saat 06:00-dək uzadılsın.

2. "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1209 (Cild I) 1.1-ci bəndində "2 aprel" sözləri "1 iyul" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan ayının başlanması münasibətilə paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Ramazan ayının başlanması münasibətilə rəsmi instaqram səhifəsində paylaşım edib.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezidentin paylaşımında qeyd olunub: "Qoy mübarək Ramazan ayı ürəklərdə saf duyğular və xoş niyyətlər oyatsın, hər bir ocağa ruzi-bərəkət, hər kəsin ailəsinə sağlıq, sevinc, səadət və əmin-amanlıq gətirsin! Uca Allah etdiyiniz duaları, tutduğunuz orucu qəbul etsin!".




## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Partiyamız, hökumətimiz və Laos xalqı adından, eləcə də öz adımdan Azərbaycan xalqının Sizə, həmçinin hakim Yeni Azərbaycan Partiyasına inam və etimadının nəticəsi olaraq yenidən Prezident seçilməyiniz münasibətilə zati-alinizə səmimi təbriklərimi çatdırıram.

Əminəm ki, Sizin müdrik rəhbərliyinizlə Azərbaycan Respublikası bütün sahələrdə inkişaf etmiş dövlətlər sırasına daxil olaraq daha da qüdrətli ölkəyə çevriləcəkdir.

Ümidvaram ki, Laos Xalq Demokratik Respublikası ilə Azərbaycan Respublikası, eləcə də Laos Xalq İnqilab Partiyası və Yeni Azərbaycan Partiyası arasında dostluq və yaxşı əməkdaşlıq əlaqələri xalqlarımızın rifahı naminə daha da möhkəmlənəcək və inkişaf edəcəkdir.

Bu fürsətdən istifadə edərək zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik, şərəfli işlərinizdə daha böyük uğurlar arzulayıram. Qoy iki partiyamız və Laos Xalq Demokratik Respublikası ilə Azərbaycan Respublikası hökumətləri arasında dostluq əlaqələri daha da güclənsin və tərəqqiyə xidmət etsin!

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Thonqlun SİSULİT,***
***Laos Xalq Demokratik Respublikasının Prezidenti, Laos Xalq İnqilab Partiyası Mərkəzi Komitəsinin Baş katibi***

❖ ❖ ❖

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Zambiya Respublikasının Hökuməti və xalqı adından Sizə ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Sizin yenidən dövlət başçısı seçilməyiniz Azərbaycan xalqının müdrik rəhbərliyinizə və ölkəni daha böyük tərəqqiyə doğru aparmaq üçün uzaqgörənliyinizə bəslədiyi inamın və etibarın əyani təsdiqidir. Yeni səlahiyyət müddətinizə başlayarkən mən Zambiya Hökumətinin ölkələrimiz arasında əməkdaşlığı möhkəmləndirmək üçün Azərbaycan Hökuməti ilə sıx əməkdaşlıq etmək istəyini bir daha təsdiq edirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul edin. Sizə möhkəm cansağlığı, Azərbaycan xalqına isə firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Hakainde HİÇİLEMA,***
***Zambiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident.

Prezident seçkilərində yenidən qələbə qazanmağınız münasibətilə "ACWA Power" şirkəti adından Sizə ən səmimi təbriklərimi çatdırıram.

Parlaq qələbəniz Azərbaycan xalqının Sizin rəhbərliyinizə və uzaqgörənliyinizə inamının, etimadının təsdiqidir.

Sizin Azərbaycan Respublikasına və xalqına xidmətlə bağlı göstərdiyiniz fədakarlıq çox həsəd aparılan rifahı və təhlükəsizliyi bərqərar etdi. Mən əminəm ki, davamlı rəhbərliyiniz Azərbaycanın qlobal arenada mühüm və etibarlı tərəfdaş kimi yerini daha da möhkəmləndirəcəkdir.

"ACWA Power" şirkəti olaraq, xidmət etdiyimiz icmalara sosial rifah və iqtisadi artım gətirən yaşıl, davamlı enerji və su layihələrini inkişaf etdirməyə sadiqliyimizi bir daha təsdiqləyirik. Sizin rəhbərliyiniz və "yaşıl transformasiya"ya baxışınızla Azərbaycan ilə əlaqələrimizi inkişaf etdirəcəyimizə inanırıq.

*Hörmətlə,*

***Məhəmməd ƏBUNƏYYAN,***
***Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkətinin İdarə Heyətinin sədri***

❖ ❖ ❖

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Asiya İnkişaf Bankı adından Sizə ən səmimi təbriklərimi çatdırıram.

Sizin Azərbaycanın inkişafı ilə bağlı baxışlarınız gələcəyə hesablanmışdır. Bu il Asiya İnkişaf Bankı ölkənizlə tərəfdaşlığın 25-ci ildönümünü qeyd edir və biz Sizin rəhbərliyinizlə bu strateji tərəfdaşlığı davam etdirməyi səbirsizliklə gözləyirik.

Ötən ilin dekabrında Sizə ünvanladığım məktubumda mən Azərbaycanı COP29-un ev sahibi və sədri seçilməsi münasibətilə təbrik etmişdim. O vaxtdan bəri COP29-un uğurlu və yaddaqalan şəkildə keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Hökumətinin gördüyü təqdirəlayiq tədbirlər, o cümlədən bu yaxınlarda ölkənin "Qlobal Metan Vədi" təşəbbüsünə qoşulması barədə məlumat almışam. Noyabr ayında Sizinlə görüşməyi səbirsizliklə gözləyirəm.

Sizə yeni prezidentlik dönəminizdə uğurlar arzulayıram. Asiya İnkişaf Bankının Azərbaycanın tərəqqisini və ölkədə "yaşıl inkişaf"ı dəstəkləməsinə sadiqliyini bir daha təsdiq edirəm.

Sizə ən yüksək ehtiramımı bildirirəm.

*Hörmətlə,*

***Masatsuqu ASAKAVA,***
***Asiya İnkişaf Bankının prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Prezident seçkilərində inamlı qələbəniz münasibətilə Sizi təbrik edirəm. Uzaqgörən rəhbərliyinizlə son iyirmi ildə bir çox sahələrdə böyük irəliləyişlərin əldə olunmasını təqdir edirəm və Sizə xüsusi ehtiramımı bildirirəm. Siz Azərbaycanın beynəlxalq statusunu böyük dərəcədə yüksəldərək, həmçinin ölkənizdə genişmiqyaslı iqtisadi tərəqqiyə nail olaraq xalqınızın həyat səviyyəsini xeyli yaxşılaşdırmısınız.

2000-ci ilin aprelində cənab Prezident Heydər Əliyevin dəvəti ilə Azərbaycana səfərim çərçivəsində Sizinlə ilk görüşümü xatırlayıram. Sizin səmimi söhbətiniz həqiqətən məni heyran etdi. Bu səbəbdən də 2003-cü ildə prezident seçkilərində qalib gəldiyinizi eşidəndə çox sevindim.

Sizi bir daha təbrik edirəm. İnanıram ki, Siz Azərbaycanın beynəlxalq statusunun daha da yüksəldilməsi və ölkənin daha sürətli iqtisadi tərəqqiyə nail olması üçün praqmatik liderliyinizi davam etdirəcəksiniz.

*Hörmətlə,*

***Koişiro MATSUURA,***
***UNESCO-nun sabiq baş direktoru***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Sizi fevralın 7-də keçirilmiş seçkilərdə qələbəniz münasibətilə təbrik edirəm.

Seçkilərdən əvvəlki dövrdə Sizin və bütün xalqınızın xidmətləri bu qələbəni şərtləndirib. Bu, Qara Bağdan indi inamla Böyük Bağa çevrilən Qarabağda qazanılan Qələbənin əks-sədasıdır.

Qoy Sizin bütün təşəbbüsləriniz həmişə "böyük" kəlməsi ilə müşayiət olunsun!

Sizə cansağlığı və uzun ömür arzulayıram.

*Həmişə Sizin,*

***Oljas SÜLEYMENOV,***
***Qazaxıstanın Xalq yazıçısı, görkəmli şair və ictimai xadim***

## BMT-nin tədbirində Qərbi azərbaycanlıların geri qayıtmaq hüququndan danışılıb

Qərbi Azərbaycan İcmasının üzvü, vətəndaş cəmiyyəti fəalı Pərvanə Vəliyeva 11 mart tarixində BMT-nin Cenevrə şəhərindəki bölməsində miqrasiya ilə bağlı keçirilən yüksəksəviyyəli görüşdə ("Təhlükəsiz, nizamlı və müntəzəm miqrasiya üzrə Qlobal Sazişin ikinci regional icmalı") Qərbi azərbaycanlıların geri qayıtmaq hüququ ilə bağlı çıxış edib.

Qərbi Azərbaycan İcmasından AZƏRTAC-a bildiriblər ki, çıxışında qayıdış hüququnun beynəlxalq insan hüquqlarının ayrılmaz hissəsi olduğunu bildirən P. Vəliyeva hazırkı qlobal qaçqın böhranı müstəvisində bu hüququn ən optimal həll kimi daha da aktuallaşdığını vurğulayıb. İcmanın nümayəndəsi BMT-nin 2030 Dayanıqlı İnkişaf Məqsədləri (DİM) Gündəliyi çərçivəsində qayıdış hüququna diqqət yetirilməli olduğunu qeyd edib.

P. Vəliyeva Ermənistanın azərbaycanlılara qarşı törətdiyi etnik təmizləmə, o cümlədən öz şəxsi nümunəsində ata-baba yurdu Vedibasardan 1988-ci ildə yüz minlərlə azərbaycanlı kimi zorla qovulması barədə məlumat verib və qaçqınlıq həyatının çətinliklərindən danışıb.

O, Qərbi Azərbaycan İcmasının qayıdış mövzusunda Ermənistanla dialoqa başlamağı təklif etdiyini, lakin hələ də Ermənistan hökumətinin bu çağırışı cavabsız qoyduğunu bildirib.

P. Vəliyeva Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə qayıtmasının qlobal köçkünlük probleminin həllinə və regionda davamlı sülhün bərqərar olmasına böyük töhfə verəcəyini qeyd edib, beynəlxalq ictimaiyyətin bu prosesə dəstək verməsinə böyük ehtiyac duyulduğunu vurğulayıb.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı



# Azərbaycan islamofobiya ilə mübarizədə öndə gedir

İslamofobiya, ksenofobiya kimi bəlalardan əziyyət çəkən ölkələrdən biri də Azərbaycandır. 1990-cı illərdə təcavüzkar ermənilər Birinci Qarabağ müharibəsini başlayanda, soydaşlarımız qaçqın və məcburi köçkün düşəndə, ərazilərimizin iyirmi faizi otuz ilə yaxın Ermənistanın işğalı altında qalanda, eləcə də bu günün özündə ölkəmiz ikili standartla, hər cür ayrı-seçkiliklə üzləşib.

Ksenofobiyanın, islamofobiyanın tüğyan etdiyi Qərb ölkələri təcavüzkar ermənilərin qanlı əməllərini görüb susduqları halda, Azərbaycanın öz ərazilərində Ermənistanın işğalına son qoymasını, separatizmlə mübarizəsini, ərazi bütövlüyünü təmin etməsini "etnik təmizləmə" adlandırırlar.

Bu cür iftiralara, böhtanlara əl atanlar çox yaxşı bilirlər ki, Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Dinlərin və etnik qrupların nümayəndələri bu ölkədə əmin-amanlıq içərisində bir ailə kimi yaşayırlar. Prezident İlham Əliyevin Bakıda keçirilən "Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" mövzusunda beynəlxalq konfransın iştirakçılarına məktubunda bildirildiyi kimi, ölkəmizdə milli sərvət kimi qorunan dini bərabərlik və inklüzivlik Azərbaycan xalqının həyat tərzidir, onun güc mənbəyidir. Bundan irəli gələrək, təbiidir ki, multikultural dəyərlərə hörmət bizim dövlət siyasətimizin prioritet istiqamətlərindən birini təşkil edir".

Prezident İlham Əliyev təəssüflə qeyd edib ki, dünyada islamofobiya meyilləri sürətlə artmaqdadır: "İslamın potensial təhlükə mənbəyi kimi aşılandığının, müsəlmanlara qarşı şübhə, ayrı-seçkilik və açıq nifrətin gündən-günə daha geniş yayıldığının şahidi oluruq. İslamofobiya ilə Mübarizə Gününə dair BMT-nin Qətnaməsində də qeyd edildiyi kimi, dini inanclarla bağlı ayrı-seçkilik, dözümsüzlük və şiddət hallarının çoxalması dərin narahatlıq doğurur". Dövlətimizin başçısı qeyd edib ki, XXI əsrdə islamofobiya, ksenofobiya və irqçiliyə yer olmamalıdır: "Terrorizm və ekstremizmi hər hansı bir din, millət, sivilizasiya və ya etnik qrupla əlaqələndirmək yanlış yanaşmadır".

Konfransın açılış mərasimində BMT Baş katibinin müavini, BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinosun tədbir iştirakçılarına müraciəti səsləndirildi. Müraciətdə bildirildi ki, dünyada bir çox müsəlmanın islamofobiyanın qurbanı olmağı böyük təəssüf doğurur. İslamofobiyanın dünyanın müxtəlif ölkələrində yayılması müsəlmanlara qarşı nifrət deyil, fobiyadır. Müsəlmanlara qarşı nifrətin insan hüquqlarına zidd olduğunu vurğulayan Migel Anxel Moratinos qeyd edib ki, ədalətli, sülh içində bir dünya yaratmaq üçün bütün insanlar qeyri-tolerantlığa qarşı mübarizə aparmalıdırlar: "Dünyada bütün dinlərin əsasında mərhəmət və qarşılıqlı hörmət dayanır. Bunu qorumaq isə bizim borcumuzdur".

Konfransda çıxışında İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Baş katibinin siyasi məsələlər üzrə köməkçisi Yusif Əl-Dubei bildirdi ki, Azərbaycan bu illər ərzində islamofobiyaya qarşı mübarizəyə həsr olunan yüksəksəviyyəli müxtəlif tədbirlər keçirib, nümunəvi addımlar atıb. Bu tədbirin keçirilməsi də Azərbaycanın güclü öhdəliyini əks etdirir.

Dünyada təxribat xarakterli aktların törədilməsinin davam etdiyini, insanların dini inanclarına görə hədəfə alındığını diqqətə çatdıran İƏT Baş katibinin köməkçisi onu da qeyd etdi ki, müsəlmanlara qarşı təzyiqlərin, ayrı-seçkilik hallarının qarşısını almaq üçün müxtəlif tədbirlər görülməlidir: "İslam Əməkdaşlıq Təşkilatı beynəlxalq təşkilatları, vətəndaş cəmiyyətlərini bu hallara qarşı birləşməyə, səfərbər olmağa çağırır".

G20 Dinlərarası Dialoq Forumunun prezidenti Kol Durham çıxışında qeyd etdi ki, islamofobiya ilə var gücümüzlə mübarizə aparıb bu problemi kökündən həll etməliyik. O vurğuladı ki, dünyada islam dininə qarşı qərəzli münasibətə, mənfi tendensiyalara adekvat cavablar verilməlidir. Ona görə də islamofobiya ilə mübarizənin əhatə dairəsi genişləndirilməlidir.

ABŞ Müsəlman Təşkilatları Şurasının baş katibi Oussama Ali Cammal "Müxtəlifliyin qorunması: 2024-cü ildə İslamofobiya ilə mübarizə" mövzusunda beynəlxalq konfrans çərçivəsində keçirilən "Multikulturalizm, İslam və sivilizasiyaların toqquşması nəzəriyyəsi: İslamofobiyanın yenidən düşünülməsi" mövzusunda aralıq sessiyasında müsəlmanlara qarşı ayrı-seçkiliyin geniş vüsət aldığını qeyd etdi.

Sözügedən beynəlxalq konfrans çərçivəsində təşkil edilmiş "Multikulturalizm, İslam və sivilizasiyaların toqquşması nəzəriyyəsi: İslamofobiyanın yenidən düşünülməsi" adlı aralıq sessiyasında çıxış edən İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzinin (IRCICA) baş direktoru Mahmut Erol Kılıç islamofobiyanı sürətlə yayılan xroniki xəstəliyə bənzətdi: "Bu problem cəmiyyətdə müxtəlif səviyyələrdə təzahür edir. Düşünürəm ki, islamofobiyanı epidemiya kimi təsvir etmək daha doğru olar". Mahmut Erol Kılıç bildirdi ki, bəzi ölkələr islamofobiyanı öz siyasətlərinin bir parçasına çevirib, bu isə dünyanı sülhdən uzaqlaşdırır: "Əgər sülhün bərqərar olduğu bir dünyanı gələcək nəsillərə ötürmək istəyiriksə, islamofobiyaya qarşı birgə mübarizə aparmalıyıq".

Böyük Britaniyanın Srebrenitsanı xatırlama təşkilatının sədri və "Badger" Sağlamlıq Qrupunun baş icraçı direktoru Vəqaruzzaman Əzmi diqqətə çatdırdı ki, islamofobiya müsəlmanlara qarşı yalnız pis rəftarla məhdudlaşmır, onun kökündə daha mənfi məqamlar var: "Çox şadam ki, Azərbaycan islamofobiya ilə mübarizədə öndə gedir, belə tədbirlər keçirir, bu məsələləri müzakirəyə çıxarır. İslamofobiyaya qarşı qlobal strategiya ilə mübarizə apardığı üçün Azərbaycan Prezidentini, Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Çünki islamofobiyaya qarşı mübarizə qlobal perspektivdə ən fundamental məsələlərdən biridir, onun qlobal strategiyaya ehtiyacı var".

Xatırladaq ki, İslamofobiya ilə Beynəlxalq Mübarizə Gününə həsr olunan "Müxtəlifliyin qorunması: 2024-cü ildə İslamofobiya ilə mübarizə" mövzusunda beynəlxalq elmi konfrans Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, G20 Dinlərarası Dialoq Forumu və Bakı Təşəbbüs Qrupunun birgə təşkilatçılığı ilə keçirildi. Konfransda dünyanın 32 ölkəsindən alimlər, beynəlxalq təşkilatların ekspertləri, din xadimləri və qeyri-hökumət təşkilatlarından 130-dan çox nümayəndə iştirak edirdi.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Makron Fransanı rüsvay edib

"Fransa anti-Azərbaycan siyasətini 44 günlük Vətən müharibəsindən sonra daha qabarıq nümayiş etdirir. Bu ölkənin əleyhimizə yönəlmiş cəhdləri isə nəinki nəticə vermir, əksinə, Fransanın imicini zədələyir. Lakin Makron hökuməti siyasi baxımdan o qədər kasad və səbatsızdır ki, məğlubiyyətlərinin fərqinə varmır və öz absurd mövqeyindən əl çəkmir".

Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Məlahət İbrahimqızı deyib. Deputat bildirib ki, Makron hakimiyyətinin yürütdüyü yarıtmaz siyasət Fransa dövlətini bütün dünyada rüsvay edib: "Cənubi Qafqazda hərbi mövcudluğuna nail olmağa çalışan Fransa prezidentinin, demək olar ki, atdığı bütün addımlar fiaskoya uğrayır. Rəsmi Paris Ermənistana missiya göndərir, onlara silah sataraq revanşistləri yeni münaqişələrə həvəsləndirir. Makron artıq iki ildən çoxdur ki, davam edən Rusiya-Ukrayna müharibəsinə münasibət bildirərkən dünya dövlətlərini hər zaman Ukraynaya dəstək göstərməyə çağırsa da, özü bu ölkəyə heç bir ciddi yardım göstərmir. Sadəcə olaraq, özünü dünyanın gözündə guya geosiyasi məsələlərdə həlledici qüvvə kimi qələmə verir".



Deputatın sözlərinə görə, Fransanın ermənipərəst siyasi xətti artıq ikrah doğuracaq səviyyəyə çatıb. Bütün sferalarda ancaq Ermənistanın maraqları naminə var-gəl edən bu ölkə regiondakı yeni reallıqları qəbul etmək istəmir. Cənubi Qafqazda daim münaqişə ocağının mövcud olmasına maraq göstərdiyi üçün İkinci Qarabağ müharibəsində məğlubiyyətə uğramış Ermənistanı yenidən silahlandırmağa çalışır. Lakin Makronun erməniləri ciddi şəkildə dəstəklədiyi bu dövr ərzində Ermənistanda siyasi və iqtisadi vəziyyət daha da pisləşib.

"Fransanın çirkin planlarından biri də neomüstəmləkəçilik siyasətini Qafqaza gətirməkdir. Fransızlar Afrikadan qovulduğu, koloniyalarda etirazların səngimədiyi bir dövrdə Makron hakimiyyətinin belə cəhdləri əbəsdir. Xüsusilə də Fransanın müstəmləkəçilik siyasətinin ard-arda ifşa olunduğu vaxtda Makronun belə xam xəyallara qapılması mənasızdır", - deyə müsahibimiz əlavə edib.

Məlahət İbrahimqızı Fransada Natəvanın heykəlinə qarşı edilən vandallıq aktına da münasibət bildirib. Qeyd edib ki, bu fakt Fransada anti-Azərbaycan ünsürlərin çoxluq təşkil etdiyini, bu ölkədə azərbaycanofobiyanın baş alıb getdiyini sübuta yetirir: "Natəvanın heykəlinə qarşı törədilmiş bu vandalizm aktına görə Paris cavab verməlidir. Fransa bu məsələ ilə bağlı heç bir addım atmayıb, bizdən üzr istənilməyib. Bu, tamamilə qəbuledilməzdir".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# Fransanın qərəzli siyasəti Ermənistana baha başa gələcək

Azərbaycanın qazandığı tarixi zəfərlə Cənubi Qafqaza yerləşmək kimi çirkin planı iflasa uğrayan Fransa ölkəmizə qarşı bütün platformalarda hücuma keçib.



Torpaqlarımızın işğalı müddətində pərdələnmiş formada Ermənistana dəstək verən, vasitəçi olaraq ikiüzlülük nümayiş etdirən Paris son üç il ərzində açıq şəkildə Bakını hədəf alan aqressiv və qərəzli siyasət yürüdür, nəinki siyasi, diplomatik sahədə, hətta mədəniyyət sahəsində də düşmən mövqeyi sərgiləyir. Görkəmli şairimiz Xurşidbanu Natəvanın Fransadakı heykəlinə qarşı edilən vandallıq hərəkətləri də buna bariz nümunədir. Özünü "mədəniyyət mərkəzi" sayan Fransada Natəvanın heykəlinin üzərinə qırmızı boya atılıb, heykəlin gözləri, adının və Azərbaycan yazısının yazıldığı hissələrinə qırmızı boya çəkilib, burnu və barmaqları sındırılıb.

## Separatizmə açıq dəstək

Danılmaz faktdır ki, Fransa dünyanın irqçi, islamofob siyasət həyata keçirən birnömrəli ölkəsidir. Eyni zamanda da ölkəmizin Parisin yürütdüyü neokolonialist, şovinizm, ksenofobiya və digər mədəniyyətlərə qarşı dözümsüzlük siyasətini dünyaya göstərməsi Yelisey sarayını pis vəziyyətə salıb. Buna görə də Paris xüsusilə son aylarda anti-Azərbaycan fəaliyyətini intensivləşdirib. Makron hökuməti beynəlxalq hüquq normalarını və prinsiplərini ayaqlar altına ataraq Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı ədalətsiz, qərəzli addımlar atır.

Təkcə bu ilin ilk ayları ərzində baş verən hadisələrin fonundan da görünür ki, Fransa ələ aldığı bəzi riyakar Qərb qurumları vasitəsilə dünyanı Azərbaycana qarşı qaldırmağa çalışır. Fransa Senatı, Avropa Parlamenti tərəfindən ölkəmizə qarşı qəbul edilən qərəzli, birtərəfli, əsassız qətnamələr, eləcə də Avropa Şurası Parlament Assambleyasında ölkəmizin nümayəndə heyətinin səs hüququnun dondurulması haqqında qərar da bunun nümunələridir. Birbaşa Yelisey sarayından idarə olunan rüşvətxor Qərb siyasətçiləri erməni lobbisinin puluna olan iştaha ilə utanmadan əyriyə düz deyirlər, gerçəklərə fərqli don geyindirirlər, beynəlxalq hüququ tapdalayaraq separatizmə dəstək verirlər.

30 il ərzində danışıqlar vasitəsilə həll oluna bilməyən Ermənistan ilə Azərbaycan arasında münaqişəyə ölkəmizin BMT TŞ-nin qətnamələrini yerinə yetirərək torpaqlarını işğaldan azad etməsi ilə son qoyulub. Azərbaycan suverenliyini təmin edərək ərazilərini separatçılardan təmizləyib. Paralel olaraq Bakı İrəvanla sülh danışıqları istiqamətində aktiv fəaliyyətə başlayıb, özünün beynəlxalq hüququn normalarına cavab verən 5 baza prinsipini təqdim edib. Bir sözlə, Azərbaycan iki ölkə arasında normallaşma istiqamətində real addımlar atıb və bu, davam edir.

## Paris sülhə maneçilik törədir

Lakin Qafqazda sülhün əldə edilməsinə yönəlik təşəbbüslər Fransanı qane etmir, buna görə də təxribatçı fəaliyyəti ilə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin həyata keçirilməsinin qarşısını almağa çalışır. Cənubi Qafqaz regionunda vəziyyəti gərginləşdirmək üçün İrəvana silah-sursat sataraq bölgədə yenidən müharibə fitilini alovlandırmağa çalışır, sülhlə bağlı proseslərə maneçilik törədir. Ötən il məhz Fransa prezidenti Emmanuel Makronun təxribatı nəticəsində Azərbaycanın İspaniyanın Qranada şəhərində oktyabrın 5-nə planlaşdırılan beştərəfli görüşdən imtina etməsi hər kəs tərəfindən bilinən faktdır. Eyni zamanda da bu il fevralın 17-də Münxendə Bakı və İrəvanın liderlər səviyyəsində keçirdiyi görüş Ermənistan-Azərbaycan arasında normallaşmaya nail olunması üçün əhəmiyyətli addım kimi qiymətləndirildi. Lakin Almaniyanın təşəbbüsü ilə baş tutan bu ikitərəfli görüşün Makronu razı salmadığı dərhal ortaya çıxdı. Belə ki, adıçəkilən görüşdən sonra Ermənistan ilə Azərbaycan arasında normallaşma istiqamətində irəliləyişin əldə olunduğu bir dövrdə Nikol Paşinyan Parisə yola düşərək orada Azərbaycana qarşı böhtanlar səsləndirdi. Beləliklə, Paşinyan Makronun əli ilə sülhə birbaşa zərbə vurdu.

Göründüyü kimi, Ermənistanın müxtəlif riyakarlıqlarla sülhdən yayınması və müharibəyə, revanşa hazırlaşması Fransanın təcavüzkara verdiyi dəstəkdən qaynaqlanır.

Lakin Fransanın qızışdırması ilə İrəvanın savaşa başlamaq kimi axmaq cürətə düşməsi öz başında çatlaya bilər.

## Bunun sülhməramlılığa heç bir aidiyyəti yoxdur

Paris digər tərəfdən də məkrli siyasət yürüdərək "sülh missiyası" adı altında Ermənistan üzərindən Qafqaza yerləşmək üçün cəhdlər edir. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova "Rossiya 1" kanalının efirində bununla bağlı bildirib ki, Fransa Afrikadakı siyasətinin uğursuzluğa düçar olmasından sonra Qarabağda özünə sülhməramlı obrazı yaratmağa çalışır.

Mariya Zaxarovanın sözlərinə görə, Qarabağda sülhməramlı rolunu Rusiya yerinə yetirib: "Hesab edirəm ki, Parisin Qafqazda fəallığının artması Fransanın Afrikadakı siyasətinin uğursuzluqla nəticələnməsi fonunda ictimai-siyasi kontekstdə bir kompensasiyadır. Fransanın Qafqazdakı "eksperiment"lərinə "bir növ sülhməramlı səylər"i daxildir. Biz bilirik ki, bunun sülhməramlılığa heç bir aidiyyəti yoxdur".

Dünyada nüfuzunu itirən, müstəmləkələrindən bir-bir qovulan Fransa indi də erməni kartından istifadə edərək Cənubi Qafqazı özünün koloniyasına çevirmək istəyir.

Ancaq Bakı heç zaman Parisin bu çirkin niyyətinə çatmasına imkan verməyəcək. Fransanın beynəlxalq hüquqazidd bütün əməllərini dünyada ifşa edən Azərbaycan erməni lobbisinin marionetinə çevrilən Makron hökumətinin layiqli cavabını verərək yerinə otuzduracaq.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# İslamofobiya dövlətlərarası münasibətlərə ciddi ziyan vurur

"Multikulturalizmin mərkəzi hesab olunan Azərbaycanda dövlətimiz tərəfindən bütün dinlərə, təriqətlərə, etnik qruplara böyük hörmət və ehtiram mühiti formalaşdırılıb. Bakıda "Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" mövzusunda keçirilən beynəlxalq elmi konfrans da bunu deməyə əsas verir. Bu tədbirdə 32 ölkədən alimlərin, beynəlxalq təşkilatların nümayəndələrinin, din xadimlərinin iştirakı konfransın nə qədər əhəmiyyətli olduğunu sübuta yetirir. Artıq ikinci dəfədir ki, ölkəmizdə keçirilən belə konfrans Azərbaycanı dünyaya bir daha tolerant dövlət kimi təqdim edir".

Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib. Komitə sədri bildirib ki, "Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" mövzusundakı konfrans həm də ölkəmizin beynəlxalq aləmdə qazandığı nüfuzun göstəricisidir: "Bu gün belə bir tədbirin Azərbaycanda keçirilməsi həm ölkəmizin tanıdılması, həm də dinlərə, etnik qruplara böyük hörmətin olmasını təsdiq edir. Bu tədbir eyni zamanda islamofobiyaya qarşı aparılan mübarizə üçün zəmanətdir. Bu gün bütün müsəlman ölkələri kimi Azərbaycan da islamofobiya ilə mübarizə aparır".

Komitə sədrinin sözlərinə görə, Vətən müharibəsində də aydın oldu ki, bir çox beynəlxalq təşkilat, eləcə də aparıcı dövlət müsəlman ölkələrinə qarşı qeyri-etik münasibət sərgiləyir: "Elə müsəlmanların çoxluq təşkil etdiyi bir ölkə olaraq Azərbaycanda da uzun müddət haqqımızın təmin edilməməsi, səsimizə səs verilməməsi bunun sübutudur. İşğalçı Ermənistan isə xristian dövlətləri tərəfindən daim dəstəklənir, ermənilərə nəinki mənəvi, eləcə də maddi yardım göstərilir. Bu gün də bu ənənə davam edir, təkcə Azərbaycana



qarşı deyil, bütün müsəlman dövlətlərinə qarşı dünyada yanlış fikir formalaşdırılır. İslama qarşı mübarizədə olan xristian aləmi öz məkrli məqsədlərini həyata keçirməkçün dəridən-qabıqdan çıxırlar".

Tahir Rzayev Azərbaycanın dünyada tolerantlığın mərkəzlərindən biri kimi öz sözünü deməyə qadir ölkə olduğunu söyləyib. Müsahibimiz deyib ki, Prezident İlham Əliyev konfransla bağlı məktubunda da qeyd edib ki, islamofobiya nəinki Azərbaycana, dünyaya vurulan zərbədir və belə bir siyasətin yürüdülməsi dinlərarası əməkdaşlığa və dövlət münasibətlərinə ciddi ziyan vurur. Ona görə də ölkəmizdə keçirilən bu konfrans böyük əhəmiyyətə malikdir. Qloballaşan dünyamızda müxtəlif dinləri üz-üzə qoymaq, millətləri bir-birinə düşmən hesab etmək gələcək üçün yaxşı heç nə vəd etmir.

Komitə sədri həmçinin vurğulayıb ki, bu konfrans Azərbaycanda yaşayan xalqların, dinlərin və etnik qrupların bir-birinə yaxınlığını nümayiş etdirməklə bərabər, dünyaya bir örnək kimi də təqdim olunur: "Doğrudan da, ölkəmizdə bütün etnik qruplar Azərbaycanın gələcəyi, ölkənin inkişafı naminə birgə mübarizə aparmaqdadırlar. Bu, Vətən müharibəsində və ötən il keçirilən antiterror tədbirlərində özünün aydın ifadəsini tapdı".

*N.QAFARZADƏ,*
*"Azərbaycan"*

# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

## Xaricdən maliyyələşən media mənsubları...

### Onların yeganə məqsədi cəmiyyətdə Azərbaycan əleyhinə ideyalar yaymaqdır

"Azərbaycan hüquq-mühafizə orqanlarının "Toplum TV" və "Abzas Media" ilə bağlı qərarları tamamilə qanunauyğundur. Azərbaycan qanunlarına görə, KİV-in maliyyə fəaliyyəti şəffaf olmalı, digər bütün işəgötürənlər kimi vergi ödəməli və Sosial Müdafiə Fonduna ödənişlər etməlidirlər".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib. Deputat bildirib ki, bu iki mətbuat orqanı xaricdən mənbəyi bilinməyən, qeyri-qanuni yolla Azərbaycana maliyyə gətirir, həmin çirkin vəsaitlə fəaliyyət göstərirlər. Aydın məsələdir ki, xaricdən bu KİV-i maliyyələşdirən mənbələr Azərbaycanda gedən proseslərin obyektiv işıqlanmasına heç cür imkan verə bilməzlər. Bu iki media orqanı tərəfindən yayılan materiallar göstərir ki, dövlətin suveren hüquqlarının qorunması, beynəlxalq aləmdə milli maraqlarımıza uyğun fəaliyyət göstərməsi, işğaldan azad olunmuş ərazilərdə gedən quruculuq işləri, şəhid ailələri və qazilərə göstərilən dövlət qayğısının işıqlandırılması onların marağında deyil. Onların məqsədləri Azərbaycan əleyhinə müəyyən ideyaların cəmiyyətdə yayılmasıdır.

Deputat qeyd edib ki, xaricdəki maliyyə mərkəzləri adlarının açılmasında maraqlı deyillər: "Xaricdən maliyyələşən media mənsubları isə onlardan aldıqları tapşırıqları yerinə yetirməlidirlər. Bu baxımdan Azərbaycan hakimiyyət orqanlarının atdığı addımlar ilk növbədə daxildə qanunun yerinə yetirilməsinin hər kəs üçün vacibliyini ortaya qoyur. Qərb institutlarının bu məsələ ilə bağlı irad bildirməyə hər hansı əsası yoxdur. Məgər Avropa dövlətləri razı olardımı, xaricdən hansısa mənbələr onların ölkələrində mətbuat orqanı yaratsın, həmin KİV-də dövlətin maraqlarına zidd olan, eyni zamanda ölkədəki vəziyyəti qeyri-obyektiv işıqlandıran materialar verilsin? Əlbbətə ki, Qərb institutları buna heç vaxt razı olmazlar, amma nədənsə, Azərbaycana gəldikdə buna əks mövqe tuturlar".

A.Mirzəzadə hesab edir ki, Azərbaycan suveren hüquqlarını, milli maraqlarını qorumaqda düzgün addım atır və bu, heç də əlahiddə hadisə deyil, bütün dövlətlərin etdikləri hərəkəti təkrarlayır.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## ABŞ-nin ikiüzlü siyasəti

Dünyanın müxtəlif bölgələrində hərbi qarşıdurma ssenarilərini gerçəkləşdirən Amerikanın sonda öz müttəfiqlərini taleyin ümidinə buraxaraq geri çəkilməsi artıq ənənə halını alıb. Bunun bariz nümunəsi kimi ABŞ-nin Əfqanıstandan qaçması və hakimiyyətin Talibana verilməsi, habelə bundan əvvəl digər regionlarda həyata keçirilən buna bənzər ssenarilərdir.

Keçmiş ABŞ dəniz piyadası Skott Ritter "Danny Haiphong" nəşrinə müsahibəsində deyib ki, Qərb Ukrayna və onun xalqı ilə maraqlanmır - əgər belə olmasaydı, Vaşinqton heç vaxt münaqişənin baş verməsinə imkan yaratmazdı. Onun sözlərinə görə, ABŞ Əfqanıstanı tərk etdiyi kimi Ukraynanı da tərk edəcək və bundan sonra heç bir general və ya məmur bunu xatırlamayacaq. Rusiya öz məqsədlərinə çatanda, Avropa başa düşəndə ki, onu heç kim işğal etməyəcək, hər şey stabilləşəcək və bir neçə günə Ukraynanı unudacaqlar. Əgər biz ukraynalıları sevsəydik, onların başına bu müsibətlərin gəlməsinə heç vaxt icazə verməzdik. Xalqı sevmirsənsə, qoy 400-500 min adamını döyüş meydanında qurban versinlər. Ukraynanı sevsəydik, indi onları bu cür tərk etməzdik.

Polşa yazıçısı, analitik, bloqçu Tomas Qryguç da Qərb siyasətinin riyakarlığından danışır: "Biz hamımız amerikalıların Əfqanıstandan qaçdığını gördük. Təyyarənin təkərlərindən sallanıb yerə çırpılan bu zavallı əfqanları gördük. Amerikalıların öz əfqan agentlərini arxaya baxmadan necə atdıqlarını gördük. Analoji ssenari Kiyevdə də baş verə bilər. Yeri gəlmişkən, Əfqanıstanda onlar texnikanı qoyub getdilər və həmin silahlarla orada xaos davam etdi. Sonda isə bunun məsuliyyəti Çin və Rusiyanın üzərinə atıldı. Amerika siyasətinin mahiyyəti budur. Bu, sadəcə olaraq siyasi fəlakətdir".

Üstəlik, Ukrayna ilə Rusiya arasında illərdir alovlanan münaqişə, dünyanın bir çox başqa hadisələri kimi, Amerikanın böyük kapitalının maraqları naminə baş verir.

Bu gün Vaşinqton bütün dünyaya "demokratiya" yaymaq iddiasında olsa da, qeyd etməliyik ki, bunun olduqca ziddiyyətli bir tarixi var. Çünki ABŞ-nin İraq, Əfqanıstan, Suriya kimi ölkələrə "bəxş etdiyi" "demokratiya"nın ağır nəticələri uzun illər məhz dünyanın gözü qarşısında müşahidə edilib.

ABŞ-nin yaymağa çalışdığı "demokratiya" hər dəfə bəşəriyyət üçün minlərlə insanın ölümü və xaosla nəticələnib. Artıq şübhə yoxdur ki, hazırda Vaşinqton eyni aqibətlə Ukraynanı da üzləşdirir. Vaxtilə Kiyevə vədlər verib onu Rusiya ilə qarşıdurmaya sövq edən məhz rəsmi Vaşinqton və onun Avropadakı müttəfiqləri olublar. İndi isə onlar Ukraynanın parçalanması ssenarisini gerçəkləşdirirlər. Və bu planın gerçəkləşməsinə hətta Vatikan da töhfə verir... Söz yox ki, sonda yaranmış vəziyyətə görə Ukrayna hakimiyyəti günahkar çıxarılacaq.

Vyanada silahlara nəzarət və hərbi təhlükəsizlik üzrə danışıqlarda Rusiya nümayəndə heyətinə başçılıq edən Konstantin Qavrilov deyir ki, Pentaqon ABŞ-nin Kiyev rejiminə hərbi yardımının mənimsənilməsi ilə bağlı 50-dən çox cinayət işi açıb. Amma nə isə göstərir ki, bu, Vaşinqtonun "siyasi şousunun" bir hissəsidir. Onlar Kiyevin hərbi qələbəsini təmin etməyin mümkünsüzlüyünü dərk edirlər. İndi onlar üçün maraqlı olan münaqişənin uzanmasıdır. Amerikalılar açıq şəkildə bildirirlər ki, Birləşmiş Ştatlar öz iqtisadiyyatını dəstəkləmək üçün Ukraynada münaqişənin daha da genişlənməsinə ehtiyac duyur.

Ekspertlər hesab edirlər ki, demokratiya və insan haqlarını manipulyasiya alətinə çevirmiş rəsmi Vaşinqton son 10 illiklərdə Latın Amerikasında, Afrikada, Asiyada və Yaxın Şərqdə müstəqil siyasət yürüdən dövlətləri vətəndaş qarşıdurması və qanlı toqquşmalar meydanına çevirib və bu siyasət hazırda da davam edir.

"The American Conservative" nəşrində qeyd olunur ki, Amerika üçün belə hallar, yəni ikiüzlü siyasət, artıq standart vəziyyətə çevrilib. Vaşinqtonun çoxdan pis vərdişi var: münaqişəyə qarışmaq və sonra ona marağını itirmək. Əvvəlcə "sizi qoruyacağıq", "sizi heç vaxt tək qoymayaçağıq", "lazımi məbləğdə pul göndərəcəyik" kimi vədlər verilir, amma sonda bunların yalan olduğu üzə çıxır və müttəfiq ölkəni tərk edirlər... İraqda, Əfqanıstanda və Vyetnamda olduğu kimi...

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***



## Dəyərlərdən uzaq düşmüş Fransanın iflas dövrü

"Bu ali məqamda, bu təntənəli saatda biz bura mənəviyyat qanunları qarşısında ürəkdən təzim etmək və bu dəqiqə qulağı Fransada olan dünyaya bunları deməyə gəlmişik: Dünyada ancaq bir güc var - ədalətin xidmətində dayanan vicdan. Dünyada ancaq bir şərəf var - həqiqətin xidmətində dayanan düha!"



Bu fikirlər dahi yazıçı Viktor Hüqonun görkəmli Fransa maarifçilərindən Volter haqqında məşhur nitqindəndir.

Əsrlər əvvəl görkəmli şəxsiyyətləri olan bir dövlətin dünyanın indiki inkişaf səviyyəsində rəzil davranışları ilə özünü bu qədər dərin mənəvi girdaba, ikrah doğuran natəmizlik bataqlığına gətirib salması dünyanın tərəqqipərvər insanlarını məyus edir.

### Korrupsiya qalmaqallarının mərkəzindəki Fransa

Bu gün Fransa deyəndə yada birinci düşən ölkədaxili etirazlar, korrupsiya cinayətləri, xarici siyasətdəki uğursuzluqlardır. Fransanın bundan əvvəlki hakimiyyətləri də tarixdə kifayət qədər qalmaqallarla, bədnam əməllərlə yadda qalıblar. Amma onların heç birini bu sahədə Emmanuel Makron hakimiyyəti ilə müqayisə etmək olmaz. Çünki Makron hakimiyyəti, birmənalı olaraq Fransa tarixinin ən korrupsioner, hər hansı tərəqqi meyilləri ilə deyil, məhz bu ölkəni gözdən salan bəd əməlləri ilə ad çıxarmış ən yarıtmaz hakimiyyətidir.

Rüşvətxorluq, müxtəlif korrupsiya və maxinasiya cinayətləri bu hakimiyyətin əsas cizgiləri olub. İrimiqyaslı maliyyə maxinasiyalarının başında isə birbaşa rəhbər şəxslərin durması heç kimə sirr deyil. Fransa prezidenti özünü ölkənin dövlətçilik dəyərlərindən, qanunlarından o qədər üstün tutur ki, hətta məhkəmələrə təzyiq göstərərək onları rüşvətdə, korrupsiya əməllərində əli olanlar haqqında bəraət qərarı çıxarmağa məcbur etməkdən belə çəkinmir.

Yerli mediada verilən xəbərlərə görə, adı korrupsiya qalmaqallarında çəkilən 72 yaşlı Fransua Bayru haqqında məhkəmədə bəraət qərarı çıxarılması buna bir nümunədir. Bu isə Makronun imicinə növbəti zərbə olmuşdur. Bayru mərkəzçi partiyanın rəhbəri kimi Makronla bir koalisiyada təmsil olunub. 557 nəfərlik Fransa parlamentində 51 deputat yeri bu koalisiyaya aiddir. Bayru indiyə kimi üç dəfə Fransa prezidentliyinə namizəd olub. Onu da yada salaq ki, adı korrupsiya kimi ağır cinayətdə hallanan yaşlı siyasətçini Makronun belə cidd-cəhdlə müdafiə etməsi heç də səbəbsiz deyil. 2017-ci ildə Makronun hakimiyyətə gəlməsində bu şəxs mühüm rol oynayıb. Bayru Fransa prezidentliyinə namizədliyini Makronun xeyrinə geri götürüb.

Makron komandasındakı şəxslərin tez-tez üzə çıxan biabırçı maliyyə əməlləri artıq ölkə və dünya mediası üçün adi xəbərlərə çevrilib. Bu ölkəni bütün dünyada nüfuzdan salan belə bədnam əməlləri hakimiyyət komandasının doğma stixiyası olub. Əgər Makron hakimiyyətinin özülünün 2017-ci ildən rüşvət və korrupsiya üzərində qurulduğunu yada salsaq, heç bir təəccübə yer qalmır. Bu barədə hələ seçki kampaniyasında maliyyə saxtakarlığının yol verildiyi dəfələrlə Fransa mətbuatında öz əksini tapmışdır.

### Erməni lobbisi ilə alver

Makronun qalmaqallarında erməni lobbisi ilə sıx işbirliyi də həmişə aparıcı xətt kimi keçib. Bu baxımdan, hazırda Makron Fransasının Ermənistanın havadarı kimi çıxış etməsinin, bu ölkəni durmadan silahlandırmasının, rəsmi İrəvanın beynəlxalq hüquq normalarına zidd maraqlarına görə bütün qaydaların, dəyərlərin üzərindən xətt çəkməsinin arxasında belə gizli mətləblər, korrupsiya əlaqələri də var.

Ümumiyyətlə, pul müqabilində siyasi və iqtisadi sövdələşmələrə açıqlıq, müxtəlif qruplarla, xüsusən erməni lobbisi ilə maxinasiyalar Fransa liderinin siyasi portretinin əsas cizgilərindəndir. Bütün bunlar özünü dünyaya "demokratiya" carçısı, "azad bazar iqtisadiyyatı" məkanı, insan hüquq və azadlıqlarını qoruyan dövlət kimi təqdim etmək istəyən Fransanın, əslində, bütün bunlardan nə qədər uzaq düşdüyünü, dövlətin başında duranların şəxsi maraqları ucbatından o boyda dövlətin acınacaqlı duruma gəldiyini göstərir.

Bu gün Fransada fermerlər arasında yaranmış kəskin narazılıqlar, kənd təsərrüfatı sahəsində çalışan sahibkarların böyük şəhərlərdə həyatı iflic etməsi Makron komandasının apardığı iqtisadi siyasətin nə qədər yanlışlığını, böyük bir tarixi olan Fransaya necə təsadüfi bir adamın rəhbərlik etdiyini göstərir. Fransa rəhbərliyi isə öz əməlləri ilə bağlı ictimaiyyətə açıqlama vermək, yaranmış vəziyyəti nizama salmaq əvəzinə özünü cəzasızlıq şəraitində sanaraq yeni-yeni qalmaqallara səbəb olur. Hazırda ölkənin böyük şəhərlərində fermerlərin etiraz aksiyaları nəticəsində yaranmış dəhşətli natəmizlik mənzərəsi bu ölkənin indiki hakimiyyətinin əsl siması, hakimiyyətin apardığı yanlış siyasətin ümumi mənzərəsidir.

### İslamofobiyanı körükləyən ölkə

Bu gün Fransa bütün Avropa məkanında ksenofobiyanı körükləyən əsas ölkə sayılır. Bu ölkədə xüsusilə islamofobiya meyilləri getdikcə geniş vüsət alır. Hazırda 5,7 milyondan çox müsəlman inanclı şəxsin yaşadığı, yəni əhalisinin 9 faizə yaxınını məhz müsəlmanların təşkil etdiyi ölkədə bunun nə demək olduğunu, cəmiyyətdə nə qədər böyük nifaq saldığını bir anlıq özümüz təsəvvür edək.

İslam inanclı insanların təqib və təhqir olunması hallarına görə Fransa öndə gedir. Bu ölkədə məscidlərin inşasına icazə verilmir, hicab qadağası genişlənir, ifadə azadlığı adı altında müsəlmanların müqəddəs inancları, görkəmli şəxsiyyətləri təhqir edilir. Artıq Fransa vandalizm yuvasına çevrilir. Vandalizmi təşviq etməyə başlayır. Buna Azərbaycanın görkəmli şəxsiyyətlərindən Xurşidbanu Natəvanın Fransadakı abidəsinə göstərilən münasibətdən hər birimiz şahid olduq. Bu ilin yanvarında Natəvanın Fransanın Evian lö Bən şəhərindəki heykəli vandalların hücumuna məruz qaldı. Üzərinə qırmızı boya atılmaqla yanaşı, heykəlin ayrı-ayrı hissələri qırıldı. Belə hallar Fransa adına sadəcə utanc gətirir.

Müasir Fransanın korlanmış imici ətrafında daha bir acınacaqlı mənzərə isə budur ki, belə bir ölkə Azərbaycan da daxil olmaqla, bir sıra inkişaf etməkdə olan ölkələr üçün arbitr rolunu oynamaq istəyir. Necə deyərlər, ortalığa atılaraq ayrı-ayrı ölkələrə nəyisə öyrətmək, hansısa prinsipləri aşılamaq niyyətinə düşür. Soruşan gərək, korrupsiyada ad çıxarmış, vandalizmi, ksenefobiyanı, müsəlmanlara qarşı ayrı-seçkiliyi, neokolonalizmi dövlət siyasətinə çevirmiş bədnam bir ölkədən yaxşı, faydalı nə öyrənmək olar ki?! Bu gün Fransa başqa ölkələrin işlərinə qarışmaq, ayrı-ayrı bölgələrdə, o cümlədən Cənubi Qafqazda münaqişə ocaqları qalamağa cəhd göstərmək əvəzinə yaxşı olar ki, Korsikada, Yeni Kaledoniyada öz haqlarını tələb edən etnik qruplara qarşı kobud qanun pozuntularına görə cavab versin. Bilavasitə milli azlıqların dilini, mədəniyyətini, milli identikliyini qorumağı özündə ehtiva edən Milli Azlıqlara dair Avropa Xartiyasını niyə indəyə qədər qəbul etməməsinin səbəblərinə aydınlıq gətirsin.

### Bu ölkənin ləkəli keçmişi var

Fransa bu gün özünün ləkəli keçmişinə, islam ölkələri və müsəlmanlara qarşı törətdiyi qanlı cinayətlərə görə üzr istəməlidir. Tarixin müxtəlif dövrlərində 50-dən artıq dövlətin ərazisini işğal etməsinin, insanlıq və bəşəriyyət əleyhinə törətdiyi cinayətlərin hesabını verməlidir. Nüvə sınaqları həyata keçirməklə Əlcəzairin müsəlman əhalisini soyqırımına məruz qoymuş, bu əhalinin üsyankar liderlərini qətlə yetirdikdən sonra meyitlərini belə verməmiş, onların sümüklərinin qalıqlarını Fransaya aparmışdı. Rəsmi Paris bu utancından heç olmasa indi nəticə çıxarmalıdır. Amma bədnam əməllərini indi də həyasızcasına davam etdirən Fransanın ləkəli keçmişindən nəticə çıxarmaq fikri yoxdur.

Ölkə neokolonializm siyasətini bu gün daha açıq şəkildə davam etdirir, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş ümumbəşəri prinsiplərinə hörmətsizlik nümayiş etdirərək insan hüquqlarını kobud şəkildə pozur, xalqlar arasında barışın əldə olunmasına, sülh və əmin-amanlıq mühitinin yaranmasına mane olmaqda davam edir. Bununla belə, sirkə nə qədər tünd olarsa, öz qabını sındırar, demiş atalarımız. Fransa kimi ölkələrin çirkin siyasəti, öz xislətini qətiyyən gizlətmədən açıq şəkildə ortaya qoyması nə vaxtsa bütün dünyaya arbitrlik etmək istəyənlərinn əsl mahiyyətini ifşa edir, onların sonunu yaxınlaşdırır, həqiqətən sülh, inkişaf, rifah və xoşbəxtlik arzusunda olan dövlətləri, xalqları, ümumi məqsədlər ətrafında birləşdirir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

## Separatçı ünsürlərin avantüraları Ermənistana baha başa gələcək

2020-ci ilin Vətən müharibəsində torpaqlarımız işğaldan azad edildi. 30 ilə yaxın davam edən işğala cəmi 44 gün ərzində son qoyuldu. Ötən ilin 19-20 sentyabr tarixlərində isə cəmi 23 saata Qarabağdakı erməni separatizmi məhv edildi və bununla da bütün torpaqlarımız üzərində milli suverenliyimiz tam təmin olundu.

Qeyd edək ki, Vətən müharibəsindən sonra Ermənistan dövləti imzalanan 10 noyabr üçtərəfli Bəyanat ilə üzərinə götürdüyü öhdəlikdən irəli gələrək qoşunlarının qalıqlarını Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri Azərbaycan ərazilərindən çıxarmadı. Qarabağdakı separatçı rejim isə təxribatlarını, ərazilərin minalanmasını, Ermənistandan silah-sursat daşınmasını davam etdirdi. Təxminən 3 ilə yaxın müddətdə Ermənistan rəhbərliyi, Qarabağdakı separatçılar nə Vətən müharibəsinin nəticələrindən, nə də Azərbaycanın xəbərdarlıqlarından nəticə çıxardılar. Azərbaycan isə necə demişdisə, elə də etdi. Separatçılar Azərbaycanın başlatdığı antiterror tədbirlərinin qarşısında heç bir sutka tab gətirə bilmədilər.

Antiterror tədbirləri nəticəsində Azərbaycanın hüquq-mühafizə orqanları Qarabağdakı qondarma rejimin başçıları olmuş Arkadi Qukasyan, Bako Saakyan, Arayik Harutyunyan, habelə "sabiq xarici işlər naziri" David Babayan, "parlament sədri" David İşxanyan, "generallar" Lyova Mnatsakanyan, David Manukyan və "keçmiş dövlət naziri" Ruben Vardanyan qandallanaraq Bakıya gətirildilər. Vaxtilə Azərbaycanı təhdid edən, Gəncənin raket atəşinə tutulması üçün əmr verən, xəbərdarlıqlarımıza ironik münasibət bildirən separatçılara tezliklə layiqli cəza veriləcək. "Onlar Bakıya gəlmək istəyirdilər, onlar bizi hədələyirdilər, deyirdilər ki, onların tankları Bakı küçələrində olacaq, haqlı çıxdılar. Onların tankları Hərbi Qənimətlər Parkındadır. Onlar deyirdilər ki, Bakıya gəlib çay içəcəklər. Burada da haqlıdırlar. İndi çay içirlər, istintaq təcridxanasında", - deyə Prezident İlham Əliyev bildirib.

Antiterror tədbirləri ilə 200 illik erməni separatizminə və Qarabağdakı qondarma və separatçı rejimin varlığına birdəfəlik son qoyuldu. O cümlədən qondarma rejimin bu gün Ermənistanda olan nümayəndələri də özlərini buraxdıqlarını elan etdilər. Lakin özünü buraxmış və artıq mövcud olmayan qondarma rejimin hazırda Ermənistanda yenidən baş qaldırdığı, bu istiqamətdə müxtəlif təşəbbüslərin edildiyi müşahidə olunur. Məsələn, bir müddət əvvəl Ermənistanın kütləvi informasiya vasitələrində özünü hələ də hansısa qondarma "dövlətin prezidenti" kimi qələmə verən S.Şahramanyan adlı biri tərəfindən "dövlət naziri vəzifəsinə təyinat həyata keçirməsi" barədə məlumatlar yayılıb. Həmçinin bu adamın Ermənistanın daxili siyasi qüvvələrinin təmsilçiləri və İrəvandakı müxtəlif ölkələrin diplomatları ilə əlaqə saxladığı da yayılan məlumatlar arasındadır. Separatçı ünsürlərin fəaliyyət dairələrini genişləndirərək Qərb təmsilçiləri ilə görüşlərə can atdıqları da bildirilir.

Ermənistandakı separatçı ünsürlərin fəaliyyətinin Ermənistan rəhbərliyinin nəzarətində olmasına heç bir şübhə yoxdur. Görünən odur ki, Paşinyan hakimiyyəti də onların fəaliyyəti üçün şəraitin təmin edilməsində maraqlıdır. Münasibətlərin normallaşdırılması və sülhə nail olunması ilə bağlı danışıqlarda indiyə kimi sözü ilə əməli üst-üstə düşməyən Ermənistan rəhbərliyinin separatçı ünsürlər üzərindən də avantüralara rəvac verdiyi ortadadır.

İndiyə kimi Ermənistanın bütün təxribatları öz başında çatlayıb. Əvvəldə də qeyd edildiyi kimi, Azərbaycan tərəfi necə deyibsə, elə də edib. Ermənistanda separatçıların dirçəldilməsinə yönəlik addımlar da İrəvana baha başa gələcək. Bu proses davam edəcəyi təqdirdə, Ermənistanın ağır nəticələrlə üzləşəcəyi şübhə doğurmur. Çünki Azərbaycan dövləti də Qərbi Azərbaycanı bəyan edə bilər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***




# Yel çərşənbəsi - dörd ilahi başlanğıcdan üçüncüsü

Xalqımızın milli bayramları onun ənənəvi mədəniyyətinin elementlərindən hesab olunur. İnsanların inancını əks etdirən bayramlar, el şənlikləri canlı tarix nümunələridir. Xalqımızın qədim inancının daşıyıcısı olan Novruz bayramı da daim yüksək hörmətlə qeyd edilir. Novruz inanclarının əsasında insana, təbiətə həyat verən dörd ünsür - Su, Od, Yel və Torpaq durur. Buna görə də Novruz bayramına hazırlığa təzə ilin gəlməsinə dörd həftə qalmış başlanılır. Əski inamlara görə bu çərşənbələrin hər birində təbiətin dörd ünsüründən biri dirilmişdir.

İlin Novruzdan əvvəlki dörd axır çərşənbəsi müqəddəs sayılır. Novruz adətləri bu gün də ilkin mühafizəkarlığını qoruyub saxlamışdır. Novruz çərşənbələrinin hərəsinin özünəməxsus mərasimləri var. Mərasimlərdə xalqımızın dünya və kainat haqqında ilkin təsəvvürləri öz əksini tapmışdır. Bu mərasimlərin həyata keçirilməsi Novruzun əsas ünsürü olan Su çərşənbəsi ilə başlayır.

Su çərşənbəsi ilə bayrama hazırlıqlar başlayır. Deyirlər ki, Tanrı ilk olaraq suyu yaradıb. Buna görə su ilk çərşənbə kimi qeyd edilir. Xalq arasında o, "Əvvəl çərşənbə", "Əzəli çərşənbə", "Gözəl çərşənbə", "Sular Novruzu", "Gül çərşənbə", "Sel çərşənbə", "Zəmzəm çərşənbə", "Çillibeçə çərşənbə" kimi də tanınır. Su çərşənbəsində suyun müqəddəs mahiyyəti ifadə olunur. Su sağlamlıq, paklıq, tale göstərmə, övladvermə, müqəddəslik, dirilik, ölməzlik, xoşbəxtlik gətirən bir inam rəmzi kimi çıxış edir.

Od çərşənbəsi Boz ayın çərşənbələrindən biridir. Od ünsürünü, adətən, təbiətin, eləcə də, insanın yaradılış prosesinin ikinci mərhələsi kimi götürürlər. Məhz buna görə də ikinci çərşənbə od ilə bağlanır.

Bu çərşənbə "Üskü/Üsgü çərşənbə", "Üskü gecəsi", "Adlı çərşənbə", "Ocaq çərşənbəsi", "Atəş çərşənbə", "Xıs çərşənbə", "Xızır çərşənbə" adları ilə də tanınır. Od işıq, güc, qüvvət, nurlu sabahdır. Od insana sağlamlıq, paklıq və gözəllik gətirir. Od günəş və ucalıq rəmzidir. Qədim zamanlardan bəri od türkün ağlında, düşüncəsində müqəddəsliyin, günəşin rəmzi olmuşdur.

Yel ünsürü ilə bağlanan çərşənbə xalq arasında "Yel çərşənbə", "Külək oyadan çərşənbə", "Küləkli çərşənbə" və "Yelli çərşənbə" kimi tanınır. Yel çərşənbəsi ilaxır çərşənbələrin üçüncüsüdür.

"Yel" şifahi xalq ədəbiyyatımızdan müasir ədəbiyyatımıza kimi əksər nümunələrdə öz əksini tapmışdır. Xalq bədii nümunələrində və inanclarda müxtəlif mənalarda işlənən "yel", kainatın yaradılmasında əsas yer tutan dörd ünsürdən biridir. Mövsüm nəğmələri içərisində də yel haqqında bədii nümunələrə rast gəlinir:

*A yel baba, yel baba,*
*Qurban sənə, gəl, baba.*
*Taxılımız yerdə qaldı,*
*Yaxamız əldə qaldı.*
*A yel baba, yel baba,*
*Qurban sənə gəl baba.*

Təsəvvüf ədəbiyyatında külək Səba kimi ifadə olunur. Səba ruhani aləmdən əsən külək, Allahdan kamil insanların qəlbinə dolan ruhani nəfəsdir ki, bəşərin öz əslinə qovuşmasına vasitəçi olur.



Quranda isə yelin Allah tərəfindən göndərildiyi qeyd edilir. Quranda küləklər müjdəçi adlandırılır. "Nəml" surəsinin 63-cü ayəsində oxuyuruq: "Qurunun və dənizin qaranlıqlarında sizə doğru yol göstərən, küləkləri öz mərhəməti önündə müjdəçi kimi göndərən kimdir? Məgər Allahla yanaşı başqa bir tanrımı var?! Allah Ona şərik qoşduqlarından ucadır!"

### Ağ yel, qara yel, xəzri, gilavar...

Əski inamlarda Yel Tanrı kimi qəbul edilir, yaxud hər hansı bir missiyanı yerinə yetirmək üçün dünyanı idarə edən qüvvə tərəfindən göndərilən bir qüvvə kimi göstərilir. O kömək edici, cəzalandırıcı funksiyaya sahibdir. Əski etiqadlardan qaynaqlanan materiallarda "qara nəhr"də yatmış dörd cür külək - Ağ yel, qara yel, xəzri, gilavar yer üzünə çıxır. Hərəsinin də öz donu olur. Bu donların rəngləri də mifik dünyagörüşündən qaynaqlanır. Ağ yel - ağ libasda, qara yel - qara libasda, xəzri - göy libasda, gilavar qırmızı libasda təsvir edilir.

Azərbaycan mifik təfəkküründə yel yol göstərən, bələdçi funksiyasını yerinə yetirir. Yel baba yolunu azan insanların qarşısına çıxır, onlara yolu tapmaqda köməkçi olur. O, azanlara yumaq ip verərək bu vasitə ilə onları düz yola çıxarır.

*İp yumağın səridi,*
*Təri zəhmət təridi,*
*Havaya isti gəldi,*
*Suyun buzu əridi.*

Yel bir varlıq kimi götürülür, ilahi qüvvənin iradəsinin ifadəsi kimi çıxış edir, bu səbəbdən də Yel babanın şərəfinə xüsusi mərasimlər, ayinlər keçirilir. Bu mərasim dörd ilahi başlanğıcdan üçüncüsü olan Yel çərşənbəsində icra olunur. Yellə bağlı nəğmələr, bayatılar söylənilər. Yel baba köməyə çağırılar.

Əcdadlarımız inanmışlar ki, Yel baba xırmana gəlməmişdən qabaq oradan taxıl bitkiləri götürməzlər. Belə inanc var ki, sovrulandan sonra ilk buğda götürənin oğlu olar. Buna əsaslanaraq deyə bilərik ki, əski inanclarda Yel baba rabitə yaradan vasitə hesab edilirdi. Ən maraqlı rituallardan biri isə qızların küləyə "ərə getmə" mərasimidir. Taxıl döyümü vaxtı boğanaq qalxarsa, qızlar deyir: "Boğanaq gəlmə, sənə gedəcəyəm".

Yel çərşənbəsi günü, digər çərşənbələrdə olduğu kimi, tonqallar qalanır, süfrələr bəzənir. Evlərdə plov, əsasən də, südlü plov, bulğur aşı bişirilir. Süfrəyə dənli bitkilərdən hazırlanmış çərəzlərdən, quru meyvələrdən və şirniyyatlardan ibarət xonçalar qoyulur. Evlərdə təmizlik işlərinə başlanır, səməni cücərdilir, bəzi evlərdə isə azca boy atmış səməninin belinə qırmızı qurşaq bağlanır. Bu ərəfədən başlayaraq bayram üçün yeni geyimlər alınır. Yel çərşənbəsində xüsusi ayinlər də icra olunur; Yel çərşənbəsində söyüd ağacının altından keçərlər ki, niyyətin qəbul olsun. Yel çərşənbəsində Yel dağına ziyarətə gedərlər.

### Bu gecə Xızır Nəbi sevgililərə buta verir

Xalq arasında yellə bağlı inanclar üstünlük təşkil edir. Bəzi bölgələrdə külək bərk əsərkən evin ilk övladı sonbeşik uşaqla canamazı (namaz qılınan parça) əncir ağacına bağlayaraq söyləyir:

*Mən anamın ilkiyəm,*
*Ağzı qara tülküyəm,*
*Xəzri yat, gilavar yat...*
*Külək, sürmə at,*
*Gəl, ələkdə, yat!*

Bu şeir parçası bəzi bölgələrdə son misraları dəyişməklə dolunun dayandırılması üçün də oxunur. Yel çərşənbəsində isə yel əsmədikdə "Külək çağırdı" mərasimini icra edirlər.

Ulularımızın inancına görə, Yel çərşənbəsində vədə küləkləri Xızır Nəbinin əmri ilə məhəbbət qanadına çevrilərək ürəkdən-ürəyə əsərək sevgini aləmə yayır. Məhz bu səbəbdən də, oğlanlar bu çərşənbədə qız seçməyə çıxarlarmış. İnama görə, bu gecə Xızır Nəbi sevgililərə "Abi-kövsər" suyu içirib buta verir. "Ağ yelə tuş olasan səni", "Üstündən ağ yellər əssin" kimi alqışlarımızın da bu inancdan doğduğunu desək, yanılmarıq. Hətta inanca görə, Yel çərşənbəsində ata-ananın xeyir-duası olmadan qaçırılan qıza xeyir-duanı əli butalı Xızır Nəbi verir. Bu çərşənbədə qəfəsdəki quşların satın alınıb "Azat-bezat, məni cənnətdə gözət" deyərək havaya buraxılması da inanclarımızdandır. Bəzi hekayələrimizdə bu motiv öz yerini tutur. Xahiş, arzu yazılan çərpələnglərin göyə buraxılması bu çərşənbənin ayinlərindəndir. Xızır Nəbi ilə təmasda olmaq üçün icra olunan "Yellənçəkdə yellənmə" mərasimi də bu çərşənbənin rituallarındandır.

Yellə bağlı atalar sözləri də çoxluq təşkil edir: "Yelə verdiyin düşmənə qismət olar". "Yelə qoşulan çox uzağa getməz". "Yel aparan yelinki, yerdə qalan mənimki". "Yelin işi elnən deyil, külnəndi". "Küləklə yatanın cin atı olar". "Yelin zarafatı qovmaqla başlanır".

***Səhər ORUCOVA,***
***filologiya elmləri doktoru, professor***

## *Yaz günü - Novruz günü*

Bu gün yaşıd olur gündüzlə gecə,
Dağa duman çöküb, çən yeridikcə,
Dərin dərələrdə sel daşan gündür
Uca zirvələrdə
Qar əridikcə.
Damlalar dəryaya qarışan gündür,
Bu gün yerin, göyün öz sevinci var,
Gözünü açdıqca günəşli bahar,
Gözlər şəfəqlərdən qamaşan gündür,
Uzaq üfüqdəki soyuq ulduzlar
Bu gün isti-isti sayrışan gündür.
Gəlin salamlayaq doğma baharı.
Ana yurdumuzun
Ana qolları.
Baharın boynuna sarışan gündür.
Odlar torpağının gur tonqalları
Yerin ürəyitək alışan gündür.
Çaylar arzu kimi aşıb-daşanda,
Həsrətli torpaqla yaz qovuşanda,
Yer göyə,
Göy yerə yaraşan gündür.
Təbiət sevgidən söhbət açanda,
Küsmüş sevgililər barışan gündür.
Durnalar vətənə dönür qürbətdən,
Üfüqlərin donu mavi xələtdən,
Köksündə günəşi
Zər nişan gündür.
Bu gündən, sabahdan, əbədiyyətdən
Mehriban-mehriban danışan gündür.

***Nəbi Xəzri***



# Yaz bərəkəti qışdan alar

**Ulularımız müəyyənləşdirmişlər ki, qış fəslində gecələr ayaz, gündüzlər dumanlı keçərsə, bu, qışın sərt, şaxtalı olacağına işarədir.**

Yəni bu müddətdə havalar sərt keçər, torpaq soyuyar, məhsul az olar. Qışda gündüzlər ayaz, gecələr dumanlı olanda isə, əksinə, havalar nisbətən isti keçər, torpaq mülayim olar, bitkilər tez və yaxşı inkişaf edər. Nəticədə məhsul da bol olar. Bu sınama özünü xalq ədəbiyyatı örnəklərində də saxlamışdır.

*Gecə ayaz, gündüz duman,*
*ilin kürüdür-kürü.*
*Gündüz ayaz, gecə duman,*
*İlin gülüdür-gülü.*

Qış dumanı həm də havanın dəyişəcəyini göstərən əlamətlərdən biri hesab olunur. Ulularımız onu da deyiblər ki, "qış dumanı qar gətirər, yaz dumanı bar". Qışda qar çox yağarsa, məhsul bol olar. Bu yağıntıya bərəkət, bolluq gətirən qar deyərlər. Elə ona görə də "Yaz bərəkəti qışdan alar" söyləyib ulularımız.

İlin qış fəslində torpağın qalın qarla örtülməsi çox xeyirlidir. Sanki torpaq dincəlib yorğunluğunu alır, rahatlanır. Torpağa loğmandır bu qar, - deyiblər. Bununla əlaqədar əkinçilər təcrübədən çıxarmışlar ki, qışda dincələn, yazda yola çıxan torpaq payızda barı-bəhəri ilə qayıdar.

Qışın qarı torpağın bərəkətidir. Qışda torpağın "ağ köynək" geyinməsi əkinlərin şaxtadan qorunması, yazda bol su ilə təmin edilməsi deməkdir. Bu faydalı cəhətlər "Qar olmasa, bar olmaz", "Qışın qarı, yazın varı", "Qar ili, var ili" kimi sözlərdə də öz əksini tapmışdır.

***Hazırladı: İ.ƏLİYEVA, "Azərbaycan"***



# Novruz milli-mənəvi dəyərlərin təzahürüdür

**Azərbaycan tarixən müxtəlif mədəniyyətlərin qovuşduğu məkan olduğu üçün xalqımızın milli-mənəvi dəyərlər sistemi tolerant münasibətlər, birgəyaşayış prinsipləri əsasında formalaşmış və bu, bütün dövrlərdə müşahidə edilmişdir. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Bu gün multikulturalizm Azərbaycanda dövlət siyasətidir və eyni zamanda həyat tərzidir" deməsi heç də təsadüfi deyildir. Çünki bu tolerantlıq ənənəsi Azərbaycan xalqının formalaşdığı tarixi məqamlardan bəhrələnmiş və bu günümüzə qədər gəlib çatmışdır.**

Təqdirəlayiq haldır ki, milli-mənəvi dəyərlərin və tolerantlıq ənənələrinin əsasını təşkil edən şifahi xalq ədəbiyyatı nümunələri, o cümlədən qəhrəmanlıq və məhəbbət dastanları, "Kitabi-Dədə Qorqud", "Koroğlu" və digər folklor mətnlərində birgəyaşayış prinsipinin tarixi kökləri əks olunmaqdadır. Multikultural və tolerantlıq münasibətləri ilə bağlı fikirlər Azərbaycanın görkəmli ədib və mütəfəkkirlərinin yaradıcılıqlarında qızıl xətt kimi keçən problemlərdəndir. Məsələn, Nizami Gəncəvinin, Nəsirəddin Tusinin, Məhəmməd Füzulinin, Abbasqulu ağa Bakıxanovun, Mirzə Fətəli Axundovun, Cəlil Məmmədquluzadənin və başqalarının yaradıcılıq irsində həmin ideyaların təbliğinin şahidi oluruq. Nizami Gəncəvi hələ öz dövründə, XII yüzillikdə yeddi mədəniyyətin təsvir olunduğu "Yeddi gözəl" əsərini yaratmaqla dini-irqi və milli ayrı-seçkiliyə qarşı çıxır, müxtəlif xalqların nümayəndələrini təsvir edir.

Azərbaycan Respublikası polietnik bir dövlətdir. Azərbaycan ərazisində bir sıra milli azlıqlar - tatlar, ləzgilər, udinlər, avarlar, talışlar, ingiloylar, xınalıqlılar və başqaları yaşayır. Azərbaycan öz taleyini bu torpağa bağlayan bir sıra azsaylı xalqların və etnik qrupların doğma vətəninə çevrilib. Etnik qruplar və azsaylı xalqlar digər bayramlar kimi Novruzu da təmtəraqla keçirirlər. Qeyd etməliyik ki, el arasında Novruza bir ay qalmış artıq bayram tədarükünə başlanmış və bu, Azərbaycanda yaşayan xalqlar arasında da paralel şəkildə aparılmışdır. Bayramın mahiyyəti azsaylı xalqlar tərəfindən olduğu kimi qəbul edilmişdir.

Azərbaycanda səmavi dinlər yaranana qədər müxtəlif inanclara, suya, oda, ağaca, səma cisimlərinə və s. inam güclü olmuşdur. Uzun əsrlərin keçməsinə baxmayaraq, həmin inamın izləri yaddaşda qorunub saxlanmış və bu gün də davam etməkdədir. Ümumilikdə dünyanın, insanın yaranmasında bilavasitə iştirak etmiş dörd ünsür - Su, Od, Yel, Torpaq islamın yaranmasına qədər milli təfəkkürdə kök salmışdır. Atəşpərəstlik məhz bu mifik təsəvvürlərin qovşağında meydana gəlmiş, Azərbaycan əhalisinin əksəriyyəti oda sitayiş etmiş, odu müqəddəs hesab etmişdir. Odla bağlı ayin və mərasimlər Novruz bayramı kontekstində, Od çərşənbəsi düşüncəsində bu günümüzə qədər gəlib çatmışdır.

Bayram ərəfəsində səməni cücərtmək, səməni halvası bişirmək, Novruz şirniyyatlarının hazırlanması, bayram axşamı şamların yandırılması, Novruz xonçasının bəzədilməsi və s. onların məişətində paralel şəkildə əhatə olunmuşdur. Hər bir xalqın həm də özünəməxsus adət-ənənələri, folklor yaradıcılıq örnəkləri vardır. Təqdirəlayiq haldır ki, 2012-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunda milli azlıqların mədəniyyətini, tarixini, etnoqrafiyasını və s. araşdıran bölmə yaradılmışdır. Həmin bölmənin məqsədi Azərbaycanda olan azsaylı xalqların şifahi yaradıcılıq nümunələrinin toplanması, sistemləşdirilib nəşr etdirilməsi və araşdırılmasını təşkil etməkdir. Bu məqsədlə 2014-cü ildə AMEA Folklor İnstitutunun təşəbbüsü ilə "Azsaylı xalqların folkloru" kitabı işıq üzü görmüşdür. Udinlərin "Yaz bayramı" adı altında verilmiş mətndə oxuyuruq: "Udinlər yaz ayında "yoğulun axsibay", yəni yaz bayramı keçirərdilər. Bu bayram mart ayının ortalarında keçirilirdi. Onun əsas əlamətlərindən biri hamının evində ənənəvi xörəklərdən biri sayılan



"hərsə" bişirilməsi idi. Yumurta bişirib qırmızı boyayardılar. Uşaqlar boyunlarına çanta keçirib həyətləri gəzər, ev sahiblərindən pay umardılar. Həyət-bacadan novruzgülü yığardılar. Mahnı oxumaqla yazın gəlişini bəyan edərdilər.

Bundan başqa, avarlar da yazın ilk günlərində bayram keçirmişlər. Yağışın yağması və günəşin çıxması ilə bağlı mərasimlər bu gün də onların şifahi yaddaşında qalmaqdadır. Yağışın yağmasının arzulanması xüsusi ritual forması almış, bu vaxt sacın üstündə günəşin rəmzi olan saçaqlı maxara, bişirilən sulu burcah (əriştə) isə yağış damlalarını rəmzləşdirmişdir.

Azərbaycanda azsaylı xalqların dilinin, adət-ənənələrinin, mədəniyyətlərinin qorunması, inkişafı və təbliği sahəsində mühüm işlər görülür.

Astroloji təsəvvürlərə görə, mart ayının 20-21-i ilin Yazgüntəni (gecə ilə gündüzün bərabərləşdiyi gün) günü Günəş Yer ətrafında 365 gün 6 saat dövr etdikdən sonra öz yerinə qayıdır, yəni "Balıqlar" bürcündən çıxıb "Qoç" bürcünə daxil olması ilə yadda qalır. Ona görə də əcdadlarımız ulu Novruz gününü həm də ilin, təqvimin başlanğıcı kimi qəbul etmişlər.

XI əsrin böyük ensiklopediyaçı alimi, tarix, etnoqrafiya, təbiətşünaslıq, riyaziyyat, astronomiya və başqa elmlərə dair 150-dən artıq əsərin müəllifi olan Əl-Biruni belə qeyd etmişdir: "Belə söyləyirlər ki, Tanrı - təala məhz Novruz günü zodiak bürclərini asimanda yerləşdirmiş və sonra onları yerlərində donub qalmış göy cisimləri arasında bölüşdürərək hərəkətə gətirmişdir. Sonra isə alim Günəş vasitəsilə ilin fəsillərini, aylarını, günlərini, bir sözlə, vaxtın, zamanın hesabını aça bilmişdir".

Tarixin müəyyən məqamlarında Novruz Fərvərdin, Novbahar, İlkbahar, Qışbitti, İlbaşında, İlyaz, Şahnovruz, Həzrət Novruz, Xızır Novruzu, Xuzur günü və digər adlar altında keçirilmişdir. Bu bayram təbiətin oyanışı, təbiət qüvvələrinə inam hissini aşıladığı üçün əcdadlarımız tərəfindən əziz bayram kimi qeyd olunmuşdur. Təzə ilin gəldiyi dəqiq vaxt münəccimlər tərəfindən hesablanar, bununla da "təhvil saxlamaq" ayini icra olunardı. İlin təhvil olunma anına xüsusi diqqət yetirilərdi. Hətta əhaliyə ilin təhvil olunduğunu bəyan etmək məqsədilə evlərin damlarında tonqallar qalanar, təbillər çalınardı, Novruz "topu atılar"dı. Bundan əlavə, iltəhvil saatını hər kəs öz evində də müəyyənləşdirə bilərdi, bunun üçün müəyyən məqamlara diqqət yetirmək vacib sayılırdı. Məsələn, ayinə görə, xırda balıqların bir anlığa donub qalması, yaxud əksinə, onların sudan quruya can atması, "təhvil suyu" adlandırılan xüsusi qoyulmuş suyun üzərindəki zeytun yarpaqlarının, güzgü üzərində yumurtanın hərəkəti və s. iltəhvil anının göstəriciləri hesab olunurdu. İlin təhvil olunduğu zaman ailə başçısının evinə, ailəsinə xeyir-dua verməyi də xüsusi əhəmiyyət daşıyırdı ki, buna "təhvil-təslim duası" deyilirdi.

Novruz axşamında icra olunan mühüm ayinlərdən biri də mütləq dünyasını dəyişən əzizlərin ruhlarını yad etmək, məzarlarını ziyarət etməkdir. Bayram plovu bişirilərkən onların adları bir-bir çəkilməlidir ki, ruhları sevinsin, ailəyə, evə xeyir-dua versinlər. Erkən inanca görə, bayram axşamı kim hansı əhvali-ruhiyyədə olarsa, bütün ilboyu o cür olar, ona görə də ulu babalarımız inanmışlar ki, "Novruzda gülən ilboyu gülər".

Novruz süfrəsi insan sağlamlığını möhkəmləndirən, insanın ömrünü uzadan müxtəlif nemətlərlə zəngindir. Bu nemətlər arasında "yeddiləvin", yəni "s" hərfi ilə başlanan nemətlərin - su, səməni halvası, südlü aş, süd, süzmə, səməni şorbası və onun üzərinə səpmək üçün sumaq qoyulmalıdır. Bayram axşamı hər evdə bayram plovu dəmlənir, bəzi bölgələrdə quru balıqla bişirilən südlü plov, şirin plov, əriştəli aş, qaralı aş və sairə təamlar hazırlanır. Novruz xonçasının tarixi çox qədim dövrlərlə bağlıdır, xonça, ənənəvi Novruz şirniyyatları, qırmızı alma, boyanmış yumurta və s. hər biri mifoloji təsəvvürləri əks etdirir.

Novruz həm də "sülh, dostluq, həmrəylik, humanizm" bayramıdır. Bu bayramda hamı öz sevinci ilə paylaşmalı, hər kəs kədərdən uzaq olmalıdır. İnsanlar bu əziz bayramı səbirsizliklə gözləyir, çünki onun gəlişilə qəlblərə istilik, xoşbəxtlik və xoş duyğular gəlir.

Azərbaycanda mövcud olan milli-mənəvi və multikultural ənənələr dünyanın əksər dövlətlərinə nümunə olacaq mədəni, etik dəyərlərin göstəricisi olduğu kimi, həm də müxtəlif xalqlar arasında möhkəm birliyin, sülhün və həmrəyliyin əyani sübutudur.

***Ülkər NƏBİYEVA,***
***Bakı Dövlət Universitetinin professoru***

# Ramazanda necə qidalanmalıyıq

**Dünəndən etibarən müsəlmanlar müqəddəs Ramazan ayını qeyd edir, niyyət edərək oruc tuturlar. Oruc tutan şəxslərin qidalanma rejimi digər günlərdən fərqlənir. Ona görə də bu dini ayini yerinə yetirənlər orucluq müddətində səhhətlərində problemlərin yaranmaması üçün gündəlik qida rasionuna diqqət etməli, orqanizmin ehtiyac duyduğu mineral və vitaminləri qəbul etməlidirlər.**



### Xəstəliyi olanlar həkim məsləhəti ilə oruc tutmalıdırlar

Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, terapevt Zakir Quliyev deyib ki, Ramazan ayında balanslı qidalanmaya diqqət yetirilməlidir: "İstilik və rütubətin artması səbəbindən orqanizmin maye ehtiyacını ödəmək üçün iftar və imsak arasındakı saatlarda 2-2,5 litr su içmək lazımdır. Bədəndə maye ehtiyacını artıran çay və qəhvə istehlakı minimuma endirilməlidir. Xüsusilə çəki problemi və şəkəri yüksək olanlara Ramazan ayında hazır meyvə şirəsi kimi içkilər əvəzinə, bədənin maye ehtiyacını ödəyəcək mineral sulara üstünlük vermələri tövsiyə edilir".

Z.Quliyevin sözlərinə görə, bütün günü ac qalmaq qanda şəkər balansını pozur: "Diabet xəstələri gündə 3 əsas yemək və 3 qəlyanaltı yeməlidirlər. Oruc tutmaq istəyən hipoqlikemiya riski olan diabet xəstələri həkimlərindən məsləhət almalıdırlar. Oruc tutmaq böyrək çatışmazlığı olanlar üçün problem yaradır. Bu xəstələrin böyrək funksiyaları maye itkisi səbəbindən zəifləyir. Böyrək çatışmazlığı olan insanlar da oruc tutmaq üçün həkimlərinin tövsiyələrinə əməl etməlidirlər".

Xroniki xəstəlikləri, xüsusilə hipertoniya, ürək xəstəlikləri olan insanların müəyyən saatlarda dərmanlardan istifadə etməli olduqlarını nəzərə alan mütəxəssis bu qrupdakı xəstələrin həkim məsləhəti olmadan oruc tutmalarının tövsiyə edilmədiyini bildirib. O, hamilə və süd verən analara isə özlərinin və körpələrinin sağlamlığı məqsədilə oruc tutmaq üçün ginekoloqlarına müraciət etməyi məsləhət görüb, hər hansısa bir xəstəliyin kəskinləşmə mərhələsində, aktiv infeksiyalı vəziyyətlərdə də həkim məsləhəti olmadan oruc tutulmasının zərər verə biləcəyini xatırladıb.

### İmsakda yemək vacibdir

Ramazanda günün uzanması və gecələrin qısalması ilə aclıq müddəti də uzanır. Z.Quliyevin sözlərinə görə, bu dövrdə qan şəkəri aclıq səbəbindən düşdüyü üçün gün ərzində orqanizmdə yorğunluq yarana bilər: "Bu səbəbdən imsak yeməyi vacibdir. İmsak zamanı asan həzm olunan tərəvəz yeməklərinə və çox yağlı olmayan şorbalara üstünlük verilə bilər. Xüsusilə gün ərzində aclıq problemi yaşayanlar imsakda həddindən artıq yağlı və duzlu yeməklərdən kənar durmalıdırlar.

Mütəxəssis qeyd edib ki, bəzən insanlar iftarda birdən-birə çoxlu miqdarda və sürətli şəkildə qida qəbul edirlər: "Uzun müddətli orucdan sonra iftarda 20 dəqiqədən sonra toxluq hissi yaradan hormonlar ifraz edildiyi və çox yemək istəyi aradan qalxdığı üçün yemək tez istehlak edilməməlidir. Artıq miqdarda və sürətli yemək sağlamlıq problemlərinə səbəb ola bilər. İftar süfrəsində ilk növbədə şorba, tərəvəz və salat olmalıdır. Həddindən artıq yağlı qidalara üstünlük verilməməlidir. Belə qidalar istehlak edilərsə, onların miqdarı minimal olmalıdır. Qaynadılmış və sobada bişmiş yeməklərə üstünlük verilməlidir. Qızardılmış qidalardan uzaq durmaq lazımdır. İftardan sonra hərəkətsizliyə və yatmağa vaxt sərf etmək əvəzinə, gəzinti kimi yüngül məşqlər edilməlidir. Pəhriz dəyişikliyi və maye qəbulunun olmaması səbəbindən qəbizlik yarana bilər. Bu səbəblə lifi yüksək olan qidaların istehlakına diqqət yetirilməlidir".

### Orucun faydaları var

Həkim deyir ki, uzun müddət aclığa səbəb olan oruc tutulması kalori qəbulunu məhdudlaşdıraraq və maddələr mübadiləsini sürətləndirərək, bədəndəki yağ yandırma prosesini dəstəkləyir. Bundan əlavə, oruc tutmaq orqanizmin uzun müddət ac qalması nəticəsində insulin müqavimətini və qan şəkərini azaltmağa kömək edir. İnsulin müqavimətinin azaldılması həm də qlükozanın qandan hüceyrələrə daha səmərəli şəkildə daşınmasına imkan verir. Bədəni yeniləyən oruc bu təsiri sayəsində immunitet sistemini gücləndirir və insanı xəstəliklərə qarşı daha möhkəm edir.

"Normalda çox işləyən və yorulan həzm və bağırsaq sistemləri oruc sayəsində dincəlmə şansı qazanır. Bu baxımdan, oruc tutmaqla insan mədə və bağırsaqlarının istirahətinə icazə verir. Eyni zamanda oruc sinir hüceyrələrinin yenilənməsinə töhfə verməklə beyin sağlamlığını və idrak funksiyalarını yaxşılaşdırmağa kömək edir. Uzun müddət ac qalmaq hüceyrələrin yenilənməsini sürətləndirir və dəri hüceyrələri bu prosesdə yenilənib canlanır və güc qazanır. Oruc tutmaq qan təzyiqi və xolesterin səviyyələrini azaltmağa kömək edir, bununla da ürək sağlamlığının qorunmasında böyük rol oynayır. Orucun fiziki faydaları ilə yanaşı, psixoloji faydaları da var. Oruc tutmaq insanın iradəsini və səbrini təkmilləşdirməklə yanaşı, həm də insana özünü idarə etmək həvəsi aşılayır", - deyə Z.Quliyev bildirib.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

**İstehsalat Xidmətləri İdarəsinin Yanğından mühafizə balonlarının doldurulması sahəsi üçün yanğınsöndürmə avadanlıqlarının satın alınması məqsədilə**

***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 19 mart 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

***Tender komissiyası***


# Müxalifət Paşinyana qarşı separatçılardan istifadə edir

Hayastan müxalifəti qarşıdakı günlərdə planlaşdırdığı aksiyalarla baş nazir Nikol Paşinyanı hakimiyyətdən uzaqlaşdırmağı hədəfləyir.





Müxalifətçilər etirazlarına əsas kimi hakimiyyətin yürütdüyü uğursuz siyasəti göstərirlər. Onlar baş nazirin xarici siyasətinin ölkəni uçuruma sürüklədiyini, xalqı dövlətçiliyin itirilməsi ilə üz-üzə qoyduğunu iddia edirlər.

Ümumiyyətlə, 2018-ci il inqilabından sonra Hayastanda xalq arasında nüfuzunu itirən Sarkisyan-Koçaryan koalisiyasına havadarlıq edənlər artıq başqa adlar üzərində axtarışa başlayıblar. Qatı rusiyayönlü siyasi qüvvələrin yaratdığı "Birgə" alternativ ictimai-siyasi hərəkatı hökuməti devirmək məqsədilə kütləvi etirazlara başlamağı planlaşdırır.

Bununla yanaşı, müxalifət hakimiyyətə gəlmək üçün xaricdən, indiki halda Rusiyadan da yardım alacağına ümid bəsləyir. "4rd.am" nəşri yazır ki, Hayastanda hakimiyyət çevrilişi istisna olunmur: "Məlumata görə, danışıqlar prosesi ilə paralel olaraq müxtəlif platformalarda başqa diqqətçəkən müzakirələr də gedir. Diplomatik mənbələrdən alınan məlumatlara görə, mümkün Hayastan-Azərbaycan razılaşmasının maraqlı mərkəzləri, xüsusən də Qərb, sənədin imzalanmasından sonra Nikol Paşinyanın hakimiyyətdə qalması məsələsinin çox ciddi problemə çevrilə biləcəyini anlayaraq bu günlərdə alternativ, "ehtiyat" variantının müzakirəsi ilə bağlı fəallıq nümayiş etdirir. Həmin mərkəzlər başa düşürlər ki, müqavilə imzalanandan sonra Paşinyanı hakimiyyətdə saxlamaq nəinki qeyri-mümkün ola, həm də məqsədəuyğun olmaya bilər. Buna görə də onlar "B" planı tapmağa çalışırlar". Qeyd olunur ki, Paşinyanın dəyişdirilməsi məsələsi həm də öz siyasi maraqlarını qorumaq və onları sona qədər irəli aparmaq, gələcəkdə regional proseslərdən kənarda qalmamaq baxımından əsasdır. Müvafiq olaraq, bir neçə mümkün namizəd müzakirə edilir ki, onlar da təbii olaraq Qərb qanadına aiddir. Yeri gəlmişkən, namizədlər arasında Paşinyanın komandasının bəzi nümayəndələri ilə yanaşı, hazırda Hayastanın daxili siyasi həyatında fəal olmayan fiqurların da olduğu barədə məlumatlar var.

Xatırladaq ki, bu günlərdə Hayastanın baş nazirinin aparat rəhbərinin müavini Taron Çaxoyan deyib ki, müxalifət Qarabağdan köçən ermənilər vasitəsilə ölkədə çevriliş etmək istəyir. O, müxalifətin hakimiyyət əleyhinə hərəkətlərinin Zəngəzurdan dəhliz verilməsi ilə nəticələnəcəyini bildirib: "Küçələrdə sirk nümayəndələri kimi dolaşan şəxslər Qarabağdan köçənlərin emosiyaları ilə oynayırlar. Sakinləri küçə döyüşlərinə başlamağa, çevriliş etməyə çağırırlar. Qarabağın guya xilası üçün çevriliş etdilər, nəticədə oranı itirdik. İndi Ermənistanda Qarabağdan köçən şəxslər vasitəsilə çevriliş etmək istəyirlər. Son məqsədləri Zəngəzurdan Azərbaycana dəhliz verməkdir".

Bu arada Hayastanda konstitusiya islahatları konsepsiyasının layihəsi artıq hazırlanıb. Yerli media yazır ki, Ədliyyə Nazirliyi ölkənin əsas qanununun hansı maddələrinə yenidən baxılmasının nəzərdə tutulduğunu açıqlamayıb, lakin qeyd edib ki, konsepsiya layihəsində idarəetmə forması, prezidentin səlahiyyətlərinin əhatə dairəsi ilə bağlı və fundamental insan hüquqlarına aid fəsildə sosial, iqtisadi və mədəni hüquqların qeyd edilməsi ilə əlaqədar müddəalar var.

Dövlət səlahiyyətlərinin özəl qurumlara verilməsini nəzərdə tutan müddəa da layihədə yer alıb. Nazirlikdən bildirilib ki, konstitusiya islahatları komissiyasına hüquqşünas David Akopyan rəhbərlik edir. Komissiyanın tam tərkibi açıqlanmır.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*




# Lənkəranda növbəti ağacəkmə aksiyası keçirilib

Lənkəran Şəhər İcra Hakimiyyətinin və 1 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin birgə təşkilatçılığı ilə növbəti ağacəkmə aksiyası keçirilib.



Rayon rəhbərliyinin, hüquq-mühafizə orqanlarının, idarə və müəssisələrin, habelə ictimaiyyətin nümayəndələrinin iştirak etdikləri aksiyada Lənkəran şəhəri Heydər Əliyev prospekti boyu 200 sərv ağacı əkilib.

Eyni gündə rayonun bir neçə yaşayış məntəqəsində də belə aksiya keçirilib. Aksiyalarda 200 tuya və 300 Eldar şamı ağacları əkilib.

*S.CAVADOV,*
*"Azərbaycan"*


## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev və İmamverdi İsmayılov Milli Məclisin deputatı Elman Məmmədova əzizi
**BƏXTİYAR QULU OĞLU ASLANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırova əzizi
**ŞAMİL QARAXANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırova əzizi
**ŞAMİL QARAXANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Milli Məclisin deputatı Əliabbas Salahzadəyə əzizi
**RƏFİQƏ SALAHZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırova əzizi
**ŞAMİL QARAXANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş Prokurorluğun rəhbərliyi və kollektivi Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırova əzizi
**ŞAMİL QARAXANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırova əzizi
**ŞAMİL QARAXANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırova əzizi
**ŞAMİL QARAXANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Xocalı sakinləri Mübariz və Eldəniz Allahverdiyevlər ailələri ilə birlikdə Milli Məclisin deputatı Elman Məmmədova əzizi
**BƏXTİYAR QULU OĞLU ASLANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun kollektivi tanınmış alim, iqtisad elmləri doktoru, professor
**İSA HÜSEYN OĞLU ALIYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.



## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 30 dekabr 2023-cü il tarixdə elanı verilmiş Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərə və şəhid ailələrinə Oğuz, Balakən, Neftçala, Beyləqan, Şirvan, Ağsu və Salyan rayonlarında 2 və 3 otaqlı mənzillərin satın alınması ilə əlaqədar keçirilən açıq tenderdə qiymət təkliflərinin son verilmə tarixi və vaxtı 11 mart 2024-cü il saat 18:00-dan 15 mart 2024-cü il saat 18:00-dək uzadılsın.

Tender təkliflərinin açılış tarixi və vaxtı 18 mart 2024-cü il saat 15:00 kimi nəzərə alınsın.

***Tender komissiyası***



BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj **4298**
Sifariş **517**

Qiyməti 60 qəpik